QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim
üçün ən aziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 229 (5701) **4 dekabr** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

## "Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlər bütün sahələrdə uğurla inkişaf edir"

*Prezident İlham Əliyev Rusiyanın rəqəmsal inkişaf, rabitə və kütləvi media nazirini qəbul edib*



Səh 2

### "Azərbaycanın hərbi potensialının artması Ermənistanın hərbi-siyasi rejimini təşvişə salıb"

Bax 9

*Son zamanlar Ermənistanda antirusiya ab-havasının yenidən hökm sürdüyü bir vaxtda Azərbaycanın müasir silah və hərbi texnika almaqla hərbi potensialını davamlı şəkildə artırması, həmçinin ən yeni texnologiyaların tətbiqi ilə keçirdiyi hərbi təlimlərdə ordusunun döyüş qabiliyyətini yüksəltməsi bir çox dost ölkələri sevindirsə də, Ermənistanın hərbi-siyasi rejiminin əməli-başlı təşvişə düşməsinə və narahatlığının daha da artmasına səbəb olub. Bunu ehtiyatda olan...*

### Ermənistanda deputat 14 milyonluq rüşvətə görə həbs olunacaq

Bax 9

*Ermənistanın Baş prokurorluğu ölkə parlamentinə Respublika partiyasından olan deputat Aram Arutunyanla bağlı müraciət ünvanlayıb. SİA armenianreport-a istinadən xəbər verir ki, müraciətdə onun deputat toxunulmazlığının aradan qaldırılması və həbs olunmasına şəraitin yaradılmasıdır. Erməni saytı ölkə prokurorluğunun saytına istinadən onu da yazır ki, Aram Arutunyan xüsusilə 14 milyon dollar daxil olmaqla, külli miqdarda rüşvət almaqda ittiham edilir. Bildirilir ki, o, bu rüşvəti...*

### Ərdoğan: "Türkiyə soyqırımı törətməkdə ittiham edilə bilməz"

Bax 6

*Türkiyə prezidneti Rəcəb Tayyib Ərdoğan Buenos-Ayresdə G20 sammitinin yekunları ilə bağlı keçirilən mətbuat konfransında erməni mənşəli aregntinalı jurnalistin sualına cavab olaraq Türkiyənin 1915-ci ildə "erməni soyqırımı" ilə bağlı olmadığını bildirib. "Türkiyə ermənilərə qarşı soyqırım törətməkdə ittiham edilə bilməz. Bu müzakirələri tarixçilərə buraxaq. Bu, bizim tariximizin hissəsi deyil, lakin məsələ ilə bağlı istənilən müzakirəyə hazırıq..."*

"CISCO şirkəti uzun illər Azərbaycan hökuməti ilə uğurlu əməkdaşlıq həyata keçirir" — 2



Bakıda fiziki məhdudiyyətli şəxslərin X Ümumrespublika Yaradıcılıq Sərgi-Yarmarkası keçirilir — 3



Elmar Məmmədyarov və Zöhrab Mnatsakanyan Milanda görüşəcəklər — 4



Altay Həsənov: "Gələn il dünya gimnastikasının ürəyi Bakıda döyünəcək" — 4



"Azərbaycanla Dağıstanı birləşdirəcək yeni dəmir yolu xətti üzrə müzakirələr aparılır" — 5



Tural Sadıqlı qardaşı Elgiz Sadıqovu həbs etdirib? — 7




7 — Gəncə hadisələri ilə bağlı 22 şəxs məhkəmə məsuliyyətinə verilib



4 — Küveytdə Ərəb Xəbər Agentlikləri Təşkilatı Baş Assambleyasının 46-cı konfransı keçirilib



16 — Millimizin rəqibləri müəyyənləşdi



# "Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlər bütün sahələrdə uğurla inkişaf edir"

## *Prezident İlham Əliyev Rusiyanın rəqəmsal inkişaf, rabitə və kütləvi media nazirini qəbul edib*



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 3-də Rusiyanın rəqəmsal inkişaf, rabitə və kütləvi media naziri Konstantin Noskovu qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Rusiya Federasiyasının rəqəmsal inkişaf, rabitə və kütləvi media naziri Konstantin Noskov Bakıda keçirilən XXIV "Bakutel" Azərbaycan Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar sərgisində iştirak etmək üçün dəvətə görə minnətdarlığını bildirdi. O, bu tədbirə paralel olaraq Bakıda Regional Rabitə Birliyi çərçivəsində region ölkələrinin rabitə nazirlərinin görüşü barədə məlumat verdi. Qonaq qeyd etdi ki, bu görüş və "Bakutel" sərgisi beynəlxalq əməkdaşlığın genişlənməsi işinə öz töhfəsini verəcək. Konstantin Noskov, eyni zamanda, Rusiyanın və Azərbaycanın müvafiq nazirlikləri arasında uğurlu əməkdaşlığın həyata keçirildiyini vurğulayaraq, artıq iki ölkənin poçt xidmətlərinin səmərəli qarşılıqlı fəaliyyət göstərdiklərini bildirdi və bunun Çindən Azərbaycan vasitəsilə Rusiyaya böyük həcmdə elektron ticarət məhsullarının göndərilməsi üçün imkan yaratdığını dedi. Eyni zamanda, qonaq Azərbaycanla Rusiya mobil rabitə operatorları arasında əməkdaşlıqla bağlı danışıqların aparıldığını dedi.

Prezident İlham Əliyev Rusiya Federasiyasının rəqəmsal inkişaf, rabitə və kütləvi media naziri Konstantin Noskovun Bakıda keçirilən XXIV "Bakutel" sərgisində iştirakından məmnunluğunu ifadə etdi, eyni zamanda, Regional Rabitə Birliyi çərçivəsində region ölkələrinin rabitə nazirlərinin toplantısının beynəlxalq əməkdaşlığın genişlənməsi baxımından əhəmiyyətini vurğuladı. Dövlətimizin başçısı Bakıda ənənəvi olaraq keçirilən "Bakutel" tədbirinə beynəlxalq marağın və iştirakçı ölkələrin sayının artdığını qeyd edərək, bu tədbirin telekommunikasiya və texnologiyalar sahəsində əldə olunmuş nailiyyətlərlə yaxından tanışlıq və təcrübə mübadiləsinin aparılması üçün yaxşı imkan yaratdığını bildirdi.

Söhbət zamanı Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlərin bütün sahələrdə, o cümlədən rabitə və kütləvi kommunikasiyalar sahəsində uğurla inkişaf etdiyi bildirildi və Rusiya Federasiyasının rəqəmsal inkişaf, rabitə və kütləvi media nazirinin səfərinin əlaqələrimizin möhkəmlənməsi işinə öz töhfəsini verəcəyinə əminlik ifadə olundu.

Görüşdə iki ölkənin müvafiq qurumları arasında kiber təhlükəsizlik sahəsində əməkdaşlıq, təcrübə mübadiləsi, gələcəkdə qonşu ölkələrlə birgə layihələrin həyata keçirilməsi perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

## *Rəsmi xronika*

Prezident İlham Əliyev Xəzər rayonunun Buzovna-Mərdəkan-Qala avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

Sərəncamda qeyd edilir ki, əlli beş min nəfər əhalinin yaşadığı 3 yaşayış məntəqəsini birləşdirən Buzovna-Mərdəkan-Qala avtomobil yolunun tikintisi məqsədi ilə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 5,6 milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

Maliyyə Nazirliyinə Sərəncamda göstərilən məbləğdə maliyyələşməni təmin etmək, Nazirlər Kabinetinə Sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılır.

# "CISCO şirkəti uzun illər Azərbaycan hökuməti ilə uğurlu əməkdaşlıq həyata keçirir"

## *Prezident İlham Əliyev CISCO şirkətinin nümayəndə heyətini qəbul edib*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 3-də CISCO şirkətinin qlobal innovasiyalar üzrə vitse-prezidenti Qay Didrixin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı CISCO şirkətinin uzun illər Azərbaycan hökuməti ilə uğurlu əməkdaşlıq həyata keçirməsindən məmnunluğunu bildirdi. Prezident İlham Əliyev CISCO şirkətinin Azərbaycanda müxtəlif sahələrdə, o cümlədən nəqliyyat sahəsində həyata keçirdiyi layihələrə toxunaraq bu sahənin ölkəmizdə prioritet istiqamətlərdən biri olduğunu vurğuladı. Dövlətimizin başçısı regional əməkdaşlıq üçün yeni infrastrukturun yaradıldığını nəzərə alaraq, digər sahələrdə də əməkdaşlıq üçün yaxşı imkanların olduğunu dedi.



CISCO şirkətinin qlobal innovasiyalar üzrə vitse-prezidenti Qay Didrix Azərbaycan Prezidenti ilə əvvəlki görüşünü məmnunluqla xatırlayaraq şirkətin ölkəmizlə uğurlu əməkdaşlıq həyata keçirdiyini bildirdi. Ölkəmizə səfərindən xoş hisslər keçirdiyini deyən qonaq səfərinin məqsədinin əməkdaşlığın perspektivlərini müzakirə etməkdən ibarət olduğunu dedi və bu əməkdaşlığın "Azərbaycan 2020: Gələcəyə Baxış" İnkişaf Konsepsiyasına uyğun şəkildə həyata keçirilməsinin əhəmiyyətini qeyd etdi. Görüşdə XXIV "Bakutel" Azərbaycan Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar sərgisinin əhəmiyyətinə toxunularaq bu tədbirin beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsi işinə töhfə verdiyi qeyd olundu.

# Bakıda fiziki məhdudiyyətli şəxslərin X Ümumrespublika Yaradıcılıq Sərgi-Yarmarkası keçirilir

## Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva sərginin açılışında iştirak edib

***Dekabrın 3-də Beynəlxalq Əlillər Günü ilə əlaqədar Bakı şəhərində, İçərişəhər Dövlət Tarix-Memarlıq Qoruğunda fiziki məhdudiyyətli şəxslərin X Ümumrespublika Yaradıcılıq Sərgi-Yarmarkası işə başlayıb. Tədbirin təşkilatçısı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyidir. AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva sərginin açılışında iştirak edib, burada nümayiş olunan əl işlərinə baxıb.***



Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev sərgi barədə ətraflı məlumat verib. Bildirilib ki, üç gün davam edəcək tədbirdə ölkəmizin müxtəlif bölgələrindən fiziki məhdudiyyətli 250 nəfərdən çox şəxsin hörmə, rəsm, toxuma, xalçaçılıq, dulusçuluq-keramika məmulatları, ağac üzərində oyma, müxtəlif incəsənət və məişət nümunələri, bədii tikmələrdən ibarət 1500-dən çox əl işi nümayiş olunur. Sərgidə, eyni zamanda, əl işlərinin satışı təşkil edilib. Bu da əlilliyi olan şəxslərin və sağlamlıq imkanları məhdud uşaqların yaradıcı əməyinin maddi baxımdan stimullaşdırılması məqsədi daşıyır.














Leyla Əliyeva əl işlərinin müəllifləri olan fiziki məhdudiyyətli şəxslərlə və sağlamlıq imkanları məhdud uşaqlarla görüşüb, onlarla səmimi söhbət edib.

S.Babayev əlilliyi olan insanların istedad və bacarıqlarının cəmiyyətə tanıdılması və dəstəklənməsi, onların yaradıcılıq potensiallarına ictimaiyyətin diqqətinin artırılması məqsədilə təşkil olunan belə tədbirlərə hələ 1990-cı illərdə ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə başlandığını vurğulayıb. O, 1998-ci il noyabrın 30-da əlilliyi olan şəxslərin ilk ümumrespublika bədii yaradıcılıq baxış-müsabiqəsinin yekun tədbirində Ulu Öndərin dediyi bu sözləri xatırladıb: "Hər bir insanın cəmiyyətdə özünün daxilində olan imkanlardan istifadə etməsi üçün, öz istedadını nümayiş etdirməsi üçün ona şərait yaratmalıyıq". Bu, ötən dövrdə dövlətimizin sosial siyasətində öz əməli təsdiqini tapıb. Prezident İlham Əliyevin xüsusi qayğısı ümumən fiziki məhdudiyyətli insanların sosial təminatlarının gücləndirilməsində, onların reabilitasiya və cəmiyyətə inteqrasiya imkanlarının genişləndirilməsində əhəmiyyətli addımların atılmasına imkan yaradıb.

Beynəlxalq Əlillər Gününün cari ildəki mövzusunun "Əlilliyi olan şəxslərin imkanlarının genişləndirilməsi, inklüzivliyin və bərabərliyin təmin edilməsi" olduğunu qeyd edən nazir bu gün əlilliyi olan insanların reabilitasiyası, öz fiziki məhdudiyyətlərinə qalib gələrək daim özlərinə güclü inam hissi ilə ictimai-mədəni həyatda fəal iştirak etmələri üçün çoxşaxəli işlər aparıldığını deyib. O, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın mühüm sosial əhəmiyyət kəsb edən nəcib və xoşməramlı layihə və təşəbbüslərinin digər həssas qruplarla yanaşı, əlilliyi olan insanları da əhatə etdiyini vurğulayıb. S.Babayev Heydər Əliyev Fondunun fiziki məhdudiyyətli insanların sosial reabilitasiyası işlərinə dəstək tədbirlərinin əhəmiyyətini diqqətə çatdırıb.

Nazir BMT-nin "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyasına uyğun olaraq ölkəmizdə müvafiq qanunvericiliyin təkmilləşdirildiyini qeyd edib. Bu məqsədlə yeni qəbul olunan "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Qanunun fiziki məhdudiyyətli insanlarla bağlı mütərəqqi dünya təcrübəsindən irəli gələn yanaşmaları əks etdirdiyini bildirib.

Tədbirdə çıxış edən BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Qulam İshaqzai deyib ki, təmsil etdiyi qurum tərəfindən Beynəlxalq Əlillər Gününün təsis edilməsində əsas məqsəd bu kateqoriyadan olan insanlara cəmiyyətin diqqətinin artırılmasıdır. O, BMT-nin "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyasına qoşulan Azərbaycanda bu sənəddən irəli gələn öhdəliklərin icrası, əlilliyi olan şəxslərin cəmiyyətə inteqrasiya imkanlarının artırılması üçün aparılan işlərin təqdirəlayiq olduğunu qeyd edib.

Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının kafedra müdiri, xalçaçı-rəssam, əl işlərinin qiymətləndirilməsi üzrə münsiflər heyətinin sədri Məmmədhüseyn Hüseynov fiziki məhdudiyyətli şəxslərin hər birinin müsabiqədə qələbəyə layiq olduğunu, qalibləri müəyyənləşdirərkən çətinlik çəkdiklərini bildirib.

Sonra xüsusi bacarıqları ilə fərqlənən iştirakçılara mükafatlar təqdim edilib.

Sərgi-yarmarka çərçivəsində, həmçinin nazirlik yanında Dövlət Sosial Müdafiə Fondunun 1 saylı Sağlamlıq İmkanları Məhdud Gənclərin Peşə-Reabilitasiya Mərkəzinin və uşaqlar üçün sosial xidmət müəssisələrinin sakinlərindən ibarət rəqs qruplarının çıxışı olub.

# Altay Həsənov: "Gələn il dünya gimnastikasının ürəyi Bakıda döyünəcək"



Son on ildir ölkəmizdə gimnastika idman növləri sürətlə inkişaf edir. Azərbaycan Gimnastika Federasiyası (AGF) mötəbər tədbirlərə uğurla ev sahibliyi etməklə böyük təcrübə toplayıb. Hazırda ölkəmiz Beynəlxalq Gimnastika Federasiyasının (FIG) 82-ci Konqresinə ev sahibliyi edir. AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan Gimnastika Federasiyasının vitse-prezidenti Altay Həsənov dekabrın 3-də FIG-nin Bakıda təşkil olunan 82-ci Konqresi zamanı jurnalistlərə müsahibəsində deyib.

Ötən il ölkəmizdə FIG Şurasının iclasının təşkil olunduğunu xatırladan A.Həsənov bildirib: "Qonaqların dediklərinə görə, Konqres uğurla keçirilir və AGF bütün məsələləri yüksək səviyyədə təşkil edib. İnanıram ki, Konqresdə qəbul olunmuş qərarlar dünyada gimnastikanın inkişafına böyük təkan verəcək. Bakıda belə tədbirlərin təşkili bizi çox sevindirir. Gələn il ölkəmiz bədii gimnastika üzrə dünya çempionatına, digər növlər üzrə Avropa birinciliklərinə və dünya kuboku yarışlarına ev sahibliyi edəcək. AGF-in qrafiki çox dolğundur. Ümid edirəm ki, həmişə olduğu kimi, bu məsələlərin də öhdəsindən layiqincə gələcəyik. Gələn il dünya gimnastikasının ürəyi Bakıda döyünəcək. Azərbaycan artıq gimnastikada öz sözünü deyib. Bizim təşkilatçılığımıza yüksək səviyyədə qiymət verirlər. Təsadüfi deyil ki, AGF ötən il də FIG tərəfindən dünyada ən yaxşı federasiyalar arasında yer almışdı".

Federasiyanın vitse-prezidenti vurğulayıb ki, on il bundan əvvəl Azərbaycanda gimnastika növləri arasında ən çox inkişaf edən bədii gimnastika idi və biz buna böyük önəm verirdik. "Bakı 2015" ilk Avropa Oyunları ərəfəsində digər növlərin də inkişaf etdirilməsi barədə qərar qəbul olundu. Bir az çətinliklərimiz var, kadr ehtiyatı azdır. Ancaq biz bu istiqamətdə işlərimizi davam etdiririk. İnanıram ki, bütün bunların öhdəsindən gələcəyik. Nəticələrimiz hələ qabaqdadır.

# "Ermənistanda səslənən bəyanatların hamısı yalandır"



"Ermənistan rəhbərliyi, o cümlədən bu ölkənin müxalifət partiyaları Qarabağ məsələsindən daim alver predmeti kimi istifadə edib. Məhz bu məsələ ilə bağlı səsləndirilən ittihamlar bunu açıq-aşkar şəkildə sübut edir". Bu fikirləri SİA-ya açıqlamasında politoloq İlqar Vəlizadə deyib. O bildirib ki, hazırda Ermənistanda səslənən bəyanatların hamısı yalandır: "Çünki heç kəs Qarabağı Azərbaycana vermək niyyətində deyil. Nə Serj Sarkisyanın belə bir fikri olub, nə də Nikol Paşinyan hazırda bu barədə düşünür. Sadəcə olaraq, Sarkisyanın tərəfdarları bu gün belə bir fikir səsləndirirlər ki, guya Paşinyan Qarabağı satmaq istəyir. Eyni zamanda, Paşinyan da öz növbəsində, qarşı tərəfi məhz bu yöndə ittiham edir. Əslində isə bunu söyləməyə heç bir əsas yoxdur".

Politoloq söyləyib ki, düzdür, danışıqlar prosesində, xüsusilə də Vyana və Sank-Peterburqda rəsmi Bakı açıq şəkildə Ermənistanın qarşısına məsələ qoyaraq bəyan etmişdi ki, əgər siz aprel hadisələrinin təkrarlanmasını istəmirsinizsə, o zaman işğal olunmuş ərazilərin Azərbaycana qaytarılması barədə predmetli şəkildə düşünməlisiniz: "Bunun Minsk qrupu çərçivəsində rəsmiləşdirməyin mümkünlüyü də qeyd olunurdu".

Lakin Ermənistanın tamam başqa istiqamət götürdüyünü deyən İ. Vəlizadə qeyd edib ki, rəsmi İrəvan Qarabağ məsələsi ilə bağlı yalan məlumat verməklə ictimaiyyəti çaşdırmağa çalışır: "İrəvan Azərbaycan ərazilərinin qismən də olsa, bizə qaytarılmasını rəsmiləşdirmək yox, müxtəlif mövzuları ortaya atmaqla və beləliklə də bu məsələdən tədricən uzaqlaşmaq dəst-xətti götürüblər. Qeyd edim ki, vəziyyət məhz bu istiqamətdə gedirdi. Bir daha nəzərinizə çatdırım ki, Ermənistan rəhbərliyi heç vaxt Azərbaycan ərazilərini geri qaytarmaq fikrində olmayıb. Sadəcə, tərəflər bu cür yalanlar danışaraq Ermənistan daxilində ictimaiyyəti çaşdırmağa, siyasi divident əldə etməyə çalışır".

***Nailə Məhərrəmova***

# Məhəmməd Mirzəli ona "şərəfsiz" deyən arvadına yeyib-içmək verib



Bir neçə gündür Tural Sadıqlı-Məhəmməd Mirzəli arasında davam edən qrant davasının ardınca sosial şəbəkələrdən də bəlli olmuşdu ki, tərəflər bir-birlərinə ən alçaldıcı ifadələr işlədib, həqarətlər yağdırıblar. SİAxəbər verir ki, Tural Sadıqlının Məhəmməd Mirzəliyə "şərəfsiz" deyə xitab etməsindən sonra, ikincisi birinciyə "şərəf" sözünün nə olduğunu bilmədiyini deyərək, bu ifadəni söyüş kimi qəbul etmədiyini bildirib. Hətta evdə arvadının belə ona "şərəfsiz" deyə xitab etdiyini etiraf edib. Bu günlərdə isə məlum olub ki, Məhəmməd Mirzəli evdə onu təhqir edən arvadı ilə restoranda nahar edib və fotosunu Facebook sosial şəbəkəsində paylaşıb. Maraqlısı da budur ki, onun paylaşdığı fotonun altındakı şərh bölümündə özü kimi "şərəfsiz" ifadəsini söyüş olaraq qəbul etməyən şəxslər təriflər yağdırıblar. Bu kimi fakt isə bir daha onu sübut edir ki, belələri bütün həqarət və söyüşləri qəbul edən simasızlar yığnağıdırlar və onlar üçün şərəf, ləyaqət və mənəviyyat məfhumları mövcud deyil.

***Rövşən***

***P.S. Görünür, Məhəmməd Mirzəli bundan sonra öz arvadına daha çox sayda restoran qonaqlıqları verməli olacaq.***

# Elmar Məmmədyarov və Zöhrab Mnatsakanyan Milanda görüşəcəklər





ATƏT-in Nazirlər Şurasının 25-ci sessiyasında iştirak edən Azərbaycan Respublikası xarici işlər naziri Elmar Məmmədyarov və Ermənistan Respublikası xarici işlər nazirinin vəzifələrini icra edən Zöhrab Mnatsakanyan arasında ATƏT-in Minsk qrupunun həmsədrlərinin (İqor Popov - Rusiya Federasiyası, Stefan Viskonti - Fransa və Əndrü Sxofer - ABŞ) vasitəçiliyi ilə dekabrın 5-də Milanda görüş keçiriləcək. Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşik də iştirak edəcək. Görüşdə Ermənistan-Azərbaycan münaqişəsinin həlli üzrə danışıqlar prosesi müzakirə olunacaq.

# Küveytdə Ərəb Xəbər Agentlikləri Təşkilatı Baş Assambleyasının 46-cı konfransı keçirilib



Dekabrın 2-3-də Küveyt Dövlətinin paytaxtı əl-Küveyt şəhərində Ərəb Xəbər Agentlikləri Təşkilatının (FANA) Baş Assambleyasının 46-cı konfransı keçirilib. AZƏRTAC xəbər verir ki, Küveytin Baş naziri Cabir Mübarək əl-Həməd əs-Sabahın himayəsi ilə keçirilən tədbirdə üzv agentliklərin rəhbərləri, o cümlədən Asiya və Sakit Okean Ölkələri Xəbər Agentlikləri Təşkilatının (OANA) və Dünya Xəbər Agentlikləri Konqresinin prezidenti, Azərbaycan Dövlət İnformasiya Agentliyinin - AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanov və agentliyin ərəb dilində informasiya bölməsinin müdiri Şıxəli Əliyev iştirak ediblər. Konfransın açılışında çıxış edən Küveytin informasiya və gənclər üzrə dövlət naziri Məhəmməd əl-Cəbri bu gün dünyada sürətlə cərəyan edən hadisələrin, ortaya çıxan çağırışların mediaya təsirsiz ötüşmədiyini, bəzi mənfi təmayüllərin yaranmasına səbəb olduğunu bildirib. Nazir qeyd edib ki, xəbər agentlikləri cəmiyyətlərin sabitliyini pozmağa, insanlarda çaşqınlıq yaratmağa yönəlmiş yalan xəbərlərə qarşı sipər olmalıdır. Küveytli nazir AZƏRTAC-ın İdarə Heyətinin sədri, OANA-nın prezidenti Aslan Aslanova dəvəti qəbul edərək konfransda iştirak etdiyinə görə təşəkkürünü bildirib.

Daha sonra FANA-nın prezidenti, Küveytin KUNA xəbər agentliyinin İdarə Heyətinin sədri Şeyx Mübarək Dueyc əl-İbrahim əs-Sabah və FANA-nın baş katibi Fərid Əyyar çıxış edərək konfransda müzakirə olunacaq məsələlər barədə məlumat verib, iştirakçıları fəal diskussiyalara çağırıblar. Açılış mərasimindən sonra nümayəndələr KUNA-nın təşkil etdiyi fotosərgi ilə tanış olublar. Sonra konfrans işçi iclaslarla davam edib.

Birinci işçi iclasda FANA-nın illik fəaliyyəti barədə məruzə təqdim edilib və qarşıda duran problemlər, o cümlədən təşkilatın büdcəsi, treninq proqramlarında iştirak məsələləri barədə müzakirələr aparılıb. İclasda çıxış edən OANA-nın və Dünya Xəbər Agentlikləri Konqresinin prezidenti, AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanov regional media qurumlarının səmərəli əməkdaşlığından danışıb. O, AZƏRTAC ilə Küveytin KUNA, Səudiyyə Ərəbistanının SPA agentlikləri arasında dostluq və əməkdaşlıq əlaqələrinin yüksələn xətlə inkişaf etdiyini vurğulayaraq əmin olduğunu bildirib ki, Küveytdə yüksək səviyyədə təşkil edilən konfrans həm FANA və OANA, həm də ərəb xəbər agentlikləri ilə AZƏRTAC arasında əməkdaşlığın daha da güclənməsinə təkan verəcək.

"KUNA agentliyinin sədrliyi dövründə FANA çox mühüm irəliləyişlərə nail olub. Bu uğurda AZƏRTAC-ın yaxın dostları KUNA xəbər agentliyinin İdarə Heyətinin sədri Şeyx Mübarək Dueyc əl-İbrahim əs-Sabahın və peşəkar media mütəxəssisi, FANA-nın baş katibi Fərid Əyyarın ölçüyəgəlməz xidmətləri var. Onlar nəinki FANA-nın, habelə Dünya Xəbər Agentlikləri Konqresi Şurasının, OANA-nın və digər regional media təşkilatlarının fəaliyyətinə də dəyərli töhfələr verir", - deyə Aslan Aslanov qeyd edib.

OANA-nın veb-saytının ərəb dünyası ilə bağlı məlumatların daha geniş coğrafiyada yayılması üçün mühüm platforma olduğunu vurğulayan Aslan Aslanov ərəb xəbər agentliklərini burada daha çox informasiya paylaşmağa çağırıb. O, AZƏRTAC-ın OANA-nın daha da təkmilləşdirilməsi, müasir tələblərə cavab verən quruma çevrilməsi üçün daimi baş katiblik ofisinin yaradılması, qurumun təlim akademiyasının təsis edilməsi, maliyyə komissiyasının formalaşdırılması və digər təklifləri irəli sürdüyünü xatırladıb, bununla bağlı ərəb xəbər agentliklərinin fikirlərinin də önəmli olacağını diqqətə çatdırıb.

Hazırda medianın əsas problemlərindən birinə çevrilmiş yanlış xəbərlərin yayılmasının qarşısının alınması yollarına toxunan OANA-nın prezidenti etibarlı xəbər mənbələri olan agentliklərin daha sıx əməkdaşlıq qurmasına, informasiya və təcrübə mübadiləsini gücləndirməsinə ehtiyac olduğunu bildirib. İşçi iclaslarda bir sıra qərarlar qəbul olunub.

Qeyd edək ki, FANA 1975-ci ildə yaradılıb. Mərkəzi qərargahı Livanda yerləşən bu təşkilat öz sıralarında 18 ərəb xəbər agentliyini birləşdirir. Ərəb Liqasının nəzdində fəaliyyət göstərən FANA-nın məqsədi media qurumlarının əməkdaşlığının gücləndirilməsi və üzv agentliklər arasında təcrübə mübadiləsinin genişləndirilməsidir. Şeyx Mübarək Dueyc əl-İbrahim əs-Sabah 2015-ci ildən FANA-ya sədrlik edir. Konfransdan əvvəl KUNA-nın Baş direktoru, FANA-nın sədri Şeyx Mübarək Dueyc əl-İbrahim əs-Sabah bu ölkədə səfərdə olan AZƏRTAC-ın İdarə Heyətinin sədri, Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının (OANA) prezidenti Aslan Aslanovla görüşüb. Görüşdə FANA ilə OANA arasında əməkdaşlığın inkişaf etdirilməsinin zəruriliyi qeyd olunub, media sahəsində əlaqələrin gücləndirilməsi yolları barədə fikir mübadiləsi aparılıb. Söhbət zamanı, həmçinin Küveyt-Azərbaycan münasibətlərinə toxunulub. Belə bir yekdil fikir ifadə olunub ki, milli xəbər agentliklərinin əməkdaşlığı iki ölkəni birləşdirən əlaqələrin miqyasına uyğun səviyyədə genişləndirilməlidir.

Aslan Aslanov görüşdən xatirə olaraq Şeyx Mübarək Dueyc əl-İbrahim əs-Sabaha milli ornamentlərlə bəzədilmiş Azərbaycan xalçası və kitablar hədiyyə edib. Kitablardan biri açılışında Azərbaycan Prezidentinin iştirak etdiyi Dünya Xəbər Agentliklərinin Bakı Konqresi barədədir. Konqresdə aparılan müzakirələrdə KUNA-nın Baş direktoru da çıxış edərək medianın aktual problemlərinin həlli barədə faydalı fikirlər səsləndirib. Konqresin materialları nəşrdə Azərbaycan dili ilə yanaşı, ingilis və rus dillərində verilib. Digər kitab isə dünya xəbər agentliklərinin, o cümlədən KUNA-nın təqdim etdiyi fotolar əsasında nəşr olunub.

# "Azərbaycanla Dağıstanı birləşdirəcək yeni dəmir yolu xətti üzrə müzakirələr aparılır"

**Bu yaxınlarda Moskvada keçirilmiş "Rusiya nəqliyyatı" XII Beynəlxalq Forumuna rekord sayda iştirakçı gəlib. Tədbirdə nəqliyyat sektorunun liderləri və dövlət orqanlarının nümayəndələri əsas nəqliyyat vasitələrinin inkişafı məsələlərini müzakirə ediblər. Rusiya-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun rəhbəri, RF Dövlət Dumasının deputatı Dmitri Savelyev iki ölkə arasında nəqliyyat sahəsində əməkdaşlığın perspektivlərindən bəhs edib.**



*-Dmitri İvanoviç mötəbərlik baxımından ötən forumu necə qiymətləndirirsiniz?*

- Nəqliyyatı nahaq yerə iqtisadiyyatın qan damarı adlandırmırlar: hər hansı dövlətin iqtisadi inkişafının dinamikası əhəmiyyətli dərəcədə ondan asılıdır. Bu səbəbdən forum peşəkarlarda böyük maraq doğurub: onun işində bu sahəyə aid 910 şirkətin 3500-dən çox mütəxəssisi iştirak edib. Təkcə çıxışçıların sayı 300 nəfərdən çox olub. Tədbirdə, həmçinin 18 ölkənin, o cümlədən son illər regional nəqliyyat infrastrukturunun inkişafında əhəmiyyətli rol oynayan Azərbaycanın nəqliyyat idarələrinin nümayəndələri iştirak ediblər. Ölkənin əlverişli coğrafi mövqeyi, irimiqyaslı layihələrin həyata keçirilməsi, həmçinin tranzit və yükdaşımaları potensialının səmərəli istifadəsi Azərbaycan iqtisadiyyatına böyük uğurlar qazandırıb.

*-Rusiya ilə Azərbaycan arasında nəqliyyat sahəsində əlaqələr nə dərəcədə aktivdir?*

- Bu sahədə ölkələrimiz arasında zəruri hüquqi-normativ baza işlənib hazırlanıb, dəmir yolu, avtomobil və hava nəqliyyatı növləri üzrə bir sıra hökumətlərarası sazişlər imzalanıb. Hazırda ticarət gəmiçiliyi, Azərbaycan gəmilərinin Rusiyanın daxili sularında üzməsi şərtləri üzrə sazişlərin layihələri nəzərdən keçirilir. İki ölkənin şəhərləri arasında 100-ə yaxın müntəzəm aviareyslər fəaliyyət göstərir. Müxtəlif istiqamətlərdə 30-dan çox mütəmadi avtobus marşrutları mövcuddur. Azərbaycanla Dağıstanı birləşdirəcək yeni dəmir yolu xətti üzrə müzakirələr aparılır, ən yaxın gələcəkdə isə Mahaçqala və Bakı arasında birbaşa aviareysin həyata keçirilməsi nəzərdə tutulur.

*-Yəqin ki, sərhədyanı iqtisadi ələqələr avtomobillə yükdaşımaların həcminin artmasına xüsusi stimul verir.*

- Elədir, son vaxtlar Rusiya-Azərbaycan quru sərhədi ilə avtomobil yolu əlaqəsinin səmərəliliyinə dair layihələrə daha çox ehtiyac duyulur. Bizim yol idarələri Azərbaycanla sərhədə qədər uzanan R-217 "Qafqaz" trasında genişhəcmli iş aparırlar. Öz növbəsində, Prezident İlham Əliyev Bakıdan Rusiyanın sərhədinədək yeni avtomagistralın tikintisi ilə bağlı tapşırıq verib. İki ildən sonra o, istifadəyə veriləcək.

Bir il əvvəl Samur (Azərbaycan) və Yaraq-Qazmalar (Rusiya) keçid məntəqələri rayonunda dövlət sərhədindən keçməklə yeni avtomobil körpüsünün tikintisinə başlanılıb. Samur çayı üzərindən keçən bu körpünün tikintisi paritet əsaslarda maliyyələşdirilir və növbəti ilin üçüncü rübündə başa çatacaq. Rusiya Samurun ona aid olan hissəsində bütün zəruri gömrük infrastrukturu, o cümlədən aksiz malları üçün hazırda mövcud olmayan xüsusi post yaradacaq.

*- Rusiya və Azərbaycan arasında nəqliyyat sahəsində əməkdaşlıqdan danışarkən "Şimal-Cənub" nəqliyyat dəhlizi mövzusuna toxunmamaq mümkün deyil. Bu cür irimiqyaslı layihənin yaxın perspektivlərini necə qiymətləndirirsiniz?*

- Mən onu əsrin layihəsi adlandırardım. Axı, "Şimal-Cənub" dəhlizi faktiki olaraq Süveyş kanalına alternativ təşkil edir. Onun Hindistanın Mumbai limanından bizim Sankt-Peterburqa qədər 7,2 min kilometr məsafədə uzanan quru və dəniz marşrutları ilə yüklər təxminən 30-40 faiz daha sürətlə daşınacaq. Azərbaycan marşrutun istifadəyə verilməsi üçün infrastruktur üzərində işləri başa çatdırıb. Bundan başqa, Azərbaycan tərəfi İran Astarasında terminal istifadəyə verib və qonşu ölkəyə Xəzərin sahillərinədək uzanacaq Rəşt-Astara dəmir yolu xəttinin çəkilməsi üçün kredit ayırıb. Artıq nəqliyyat dəhlizi fəaliyyətə başlayıb: cari ilin yeddi ayı ərzində bu marşrutla yükdaşımaların həcmi 170 min ton təşkil edib.

Digər irimiqyaslı layihə ötən il istifadəyə verilmiş Bakı-Tbilisi-Qars dəmir yolu xəttidir. Bu, açıq dənizlərə çıxışı olmayan Azərbaycana Avrasiyanın ən böyük logistika hablarından birinə çevrilmək imkanı verir. Xüsusən, bir neçə ay əvvəl açılışı olmuş Abşeron Logistika Mərkəzi vaxta qənaət etməyə və yükdaşıma şirkətlərinin nəqliyyat xərclərini azaltmağa imkan verir. Ələt qəsəbəsində tikintisi davam edən Beynəlxalq Dəniz Limanı da bu məqsədlərə xidmət edir və regionda avtomobil, dəmir yolu və dəniz yollarının kəsişmə məntəqəsi olacaq.

*-Ələt dəniz limanından söz düşmüşkən, dənizçilik sahəsində əməkdaşlıqdan da danışmaq yaxşı olar. Axı, Azərbaycan Xəzər dənizində ən böyük donanmaya malikdir. Xəzərdə birgə dəniz turizmi inkişaf edirmi?*

- Unikal və analoqu olmayan turizm layihəsi - Xəzər dənizində kruiz marşrutu hazırlanır. Hazırda Həştərxandakı "Lotos" gəmiqayırma zavodunda -çay-dəniz" tipli "Pyotr Veliki" kruiz gəmisi inşa edilir. O, 2019-cu ildə istismara veriləcək və biz Xəzər dənizində kruiz səyahətlərinə başlayacağıq. Bu özünəməxsus səyahət gəmisinin marşrutu turistlərə Xəzəryanı ölkələrin sahil şəhərlərini gəzmək imkanı verəcək. Azərbaycan tərəfi ölkələrimizə qarşılıqlı gəlir gətirəcək bu layihədə tərəfdaşlıq haqqında sazişi artıq imzalayıb.

Qeyd edim ki, turizmin inkişafı təkcə iqtisadiyyatın nəqliyyat sahəsinin deyil, digər sektorların inkişafına da təkan verir. Bir neçə rəqəmi misal çəkmək istəyirəm: yanvar-oktyabr aylarında 752 min vətəndaşımız Azərbaycana səyahət edib. Ölkəmiz əcnəbi turistlərin sayına görə birinci yerdədir. Rusiyalılar Odlar diyarının tarixi yerlərini həvəslə ziyarət edirlər, dağ-xizəkçiliyi kurortlarına və yay istirahəti zonalarına gedirlər. Yaxın vaxtlarda bu imkanlara dəniz turizmi də əlavə olunacaq. Bütün bunlar ölkələrimizin bir-birinə artan marağının təzahürüdür. Axı, biz eyni dildə danışırıq, ortaq tariximiz var və bu amillər Rusiya ilə Azərbaycan arasında davamlı və səmərəli əməkdaşlığın təməlini təşkil edir.

***Fəridə Abdullayeva***
***AZƏRTAC-ın xüsusi müxbiri***
***Moskva***

## Çingiz Məmmədov: Ordumuzun arsenalındakı "Polonez", "LORA" və digər silahlar düşmənin istənilən obyektini məhv edə bilər



"Lazarev klubu"nun Yerevanda keçirilən iclasında MDB ölkələri institutunun direktor müavini Vladimir Yevseyevin çıxışı Ermənistanın hazırkı rəhbərliyinə ünvanlanmış xəbərdarlıqdır.

Bunu rusiyalı ekspertin fikirlərini AZƏRTAC-a şərh edən ehtiyatda olan general-leytenant Çingiz Məmmədov deyib.

Çıxışda diqqəti cəlb edən məqam ondan ibarətdir ki, V.Yevseyev hazırkı vəziyyətin Ermənistan və qondarma "Dağlıq Qarabağ respublikası"nın ordusu üçün əlverişsiz olduğunu, Azərbaycan Silahlı Qüvvələrinin isə hərbi təchizat baxımından üstünlüyünü aşkar şəkildə etiraf etməklə N.Paşinyan hökumətini illər əvvəl müəyyən olunan siyasi kursdan çıxmamağı məsləhət görməsidir. Bir sözlə, onun çıxışının əsas məğzi Ermənistan hakimiyyətinin Rusiyanın təsir dairəsindən uzaqlaşmaq cəhdlərinin bu ölkə üçün olduqca təhlükəli olduğunu anlatmaqdır. Eyni zamanda, Ermənistan rəhbərliyi anlamalıdır ki, Azərbaycan Ordusunun silahlanmasında olan "Polonez", "LORA" və bu günədək nümayiş etdirilməyən digər silahlar Ermənistanın ərazisində istənilən obyektləri məhv etməyə qadirdir. Bu səbəbdən də rəsmi İrəvan hazırkı reallığı dərk etməli, müharibə ritorikasından əl çəkməli və münaqişənin həllində konstruktivlik nümayiş etdirməlidir. Əks halda, Ermənistan Azərbaycan Ordusunun gücünü hiss edəcək", - deyə general-leytenant Ç.Məmmədov bildirib.

## Artak Davtyan: "Orduda intiharların sayı artıb"



Ermənistan silahlı qüvvələrinin Baş qərargah rəisi Artak Davtyan bir neçə gün öncə Gümrüdə yerləşən ali təhsil müəssisələrinin tələbələri ilə görüşündə ilginc ifadələr işlədib. SİA azatutyun.am-a istinadən xəbər verir ki, tələbələrdən birinin ona nəyə görə Rusiyadan alınmış "İsgəndər" raketlərinin ictimaiyyətə nümayiş olunmaması və həmin raketlərin hərbi təlimlər zamanı sınaqdan keçirilib-keçirilməməsi ilə bağlı sualını cavablandırarkən deyib ki, "İsgəndər" raket kompleksi erməni ordusunda saxlanılan yeganə silah növü deyil və onlarda digər silahlar da var. "Bu gün onlar barədə danışmaq, yaxud təqdim etmək üçün rahat vaxt deyil", deyən Davtyan sauldan yayınaraq, bu raketlərin parad zamanı xalqa nümayiş etdirildiyini bildirib və bundan sonra bir daha nümayişə ehtiyacın olmadığını deyib. Baş qərargah rəisi bu raketlərin köhnə sistem olması suallarını da cavabsız qoyub.

Artak Davtyan bununla yanaşı, bir etirafda da bulunub. Orduda qəza nəticəsində ölənlərin sayının azaldığını deyən erməni zabiti bunun yerinə intihar hadisələrinin artdığını bildirib: "Bir çox məsələlərdə azalma olsa da, təəssüf ki, intihar hadisələri planında müəyyən artımlar mövcuddur".

## On bir ay ərzində Azərbaycanda 547 nəfər İİV-ə yoluxub




Bu ilin 11 ayında Azərbaycanda 547 nəfər İnsanın İmmunçatışmazlığı Virusuna (İİV) yoluxub. Onlardan 529-u Azərbaycan vətəndaşı, 18-i isə əcnəbilərdir. Bunların 356-sını kişilər, 173-nü isə qadınlar təşkil edir. İndiyədək İİV infeksiyasına yoluxduğu təsdiq olunan 6 min 111 nəfər Respublika QİÇS-lə Mübarizə Mərkəzində qeydiyyata alınıb. Onlardan 4320-si kişilər, 1791-i isə qadınlardır. Qazanılmış İmmun Çatışmazlığı Sindromu (QİÇS) mərhələsinə keçənlərin və bu mərhələdə aşkarlananların ümumi sayı 149 nəfərə bərabərdir. Hazırda QİÇS mərhələsində olanların sayı 1601 nəfərdir.

AZƏRTAC xəbər verir ki, bu barədə mərkəzinin direktor əvəzi Eldəniz Muradov 1 dekabr - Dünya QİÇS-lə Mübarizə Günü münasibətilə keçirilən mətbuat konfransda məlumat verib. E.Muradov, həmçinin deyib: "İndiyədək Azərbaycanda 950 nəfər İİV infeksiyası səbəbindən vəfat edib. On ay ərzində nikaha daxil olmaq istəyən 115 min 348 nəfər İİV-ə görə müayinə olunub. Onlardan 128 nəfərdə İİV-ə yoluxma faktı aşkarlanıb".

## Holokostdan 80 il sonra Almaniyada Hanuka bayramı qeyd edilib



"Burada, Berlində baş vermiş talan gecəsindən və bütün Almaniyada Şoa (Holokost) kimi insanlığa qarşı cinayətdən 80 il sonra tariximizin uçurumu üzərindən bir-birimizə əli uzatmağımız heqiqətən də bir hədiyyədir". AZƏRTAC xəbər verir ki, bu sözləri yəhudilərin Hanuka bayramı münasibətilə Berlindəki Brandenburq darvazaları qarşısında Avropanın ən iri Hanuka çırağının ilk şamını yandıran AFR Prezidenti Frank-Valter Ştaynmayer deyib.

Hanuka möcüzəsi barədə yəhudi rəvayətinə görə, çırağın içərisində cəmi bir günə çatacaq yağ olmasına baxmayaraq, o, 8 gün yanıb. "Namümkün görünən, əslində, mümkündür. Biz antisemitizmlə razılaşa bilmərik - nə köhnəsi, nə yenisi, nə sakiti, nə də gurultulusu ilə. Mən məmnuniyyət hissləri keçirirəm ki, biz ölkəmizdə yenidən birlikdə Hanuka bayramını qeyd edə bilirik", - deyə alman dövlətinin başçısı əlavə edib.

# "İnstitutun əsas məqsədi şəxsiyyət yetişdirməkdir"

## *Azərbaycan İlahiyyat İnstitutunun rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru Ceyhun Məmmədovun SƏS TV-yə müsahibəsi:*

***- Ceyhun müəllim, Azərbaycan İlahiyyat İnstitutu nə vaxtdan fəaliyyətə başlayıb və qarşısında qoyduğu məqsəd nədən ibarətdir?***

- Azərbaycan İlahiyyat İnstitutu (AİI) Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 9 fevral 2018-ci il tarixli Sərəncamı ilə yaradılıb. Sərəncamda da qeyd olunduğu kimi AİI-nin yaradılmasında iki əsas məqsəd var. Onlardan biri Azərbaycanda tarixən mövcud olan dini, mənəvi mühitin qorunub saxlanılması, eyni zamanda dini fəaliyyət sahəsində peşəkar mütəxəssislərin yetişdirilməsidir. Bildiyiniz kimi Azərbaycanda tarixən müxtəlif dinlərin, xalqların nümayəndələri yaşayıb. Bu gün Azərbaycanda dinlərarasında münasibət çox yüksək səviyyədədir. Bu ənənəni qorumaq bir vəzifə kimi bizim qarşımızda durur. Eyni zamanda da dini fəaliyyət sahəsində gələcəkdə fəaliyyət göstərəcək mütəxəssislərin yetişdirilməsidir. Bu məqsədlə AİI-də iki ixtisas yaradılıb. Onlardan biri dinşünas, digəri isə islamşünasdır. İslamşünaslar sırf islam üzrə mütəxəssislər üçün nəzərdə tutulub. Dinşünaslar üçün isə təkcə islamla bağlı yox, eyni zamanda digər dinləri öyrənən ixtisaslara kimi nəzərdə tutulub.

***- AİI hansı maarifləndirmə tədbirlərini həyata keçirib?***

- Ümumiyyətlə AİI yarandığı gündən qarşısında bir neçə məqsəd qoyub. Həmin məqsədlərdən biri yüksək tədrisin təşkil olunmasıdır ki, artıq bu istiqamətdə biz xeyli iş görmüşük. İkinci məqsəd isə İnstitutun eyni zamanda bir tədqiqat müəssisəsi kimi fəaliyyət göstərməsidir. Təbii ki, bununla bağlı da artıq bizdə işlər gedir. Üçüncü vacib sahə isə maarifləndirmədir. Bu gün ən həssas sahələrdən biri dini maarifləndirmə sayılır. Bu istiqamətdə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və digər qurumlar müxtəlif tədbirlər həyata keçirirlər. Biz fəaliyyətə başlayanda bu sahəni bir daha təhlil etdik. Ümumi vəziyyət onu göstərir ki, insanların bu sahədə maariflənməsinə çox böyük ehtiyac var. Bəzən din insanlara yalnış çatdırılır, bəzən isə insanlar kifayət qədər məlumatlı olmurlar. O baxımdan bəzi radikal və qeyri-ənənəvi təriqətlər insanları öz sıralarına cəlb etməyə çalışırlar. Artıq bu sahədə bizim İnstitut bir sıra layihələrə başlayıb. Yarandığımız gündən bu günə kimi biz təxminən 100-ə yaxın bu cür müxtəlif tədbirlər keçirmişik. Eləcə də hər həftə bir neçə müxtəlif mövzularda seminarlar, treninqlər keçirilir. Burada dini maarifləndirmə işinə xüsusi önəm verilir. Eyni zamanda müxtəlif dinlərin ehkamları prinsipləri barədə də insanlara geniş məlumat verilir. Biz bununla bağlı davamlı olaraq elanlar veririk. Bu ancaq AİI-nin tələbələri üçün deyil, digər təhsil müəssisələrinin tələbələri, eyni zamanda ictimaiyyət üçün də açıq tədbirlərdir.

***- AİI hansı xarici ölkələrin universitetləri ilə əməkdaşlıq həyata keçirib və sazişlər imzalayıb?***



- AİI yeni yaranıb amma yeni yaranmasına baxmayaraq bu gün bizim qarşımızda duran ən əsas hədəflərdən biri beynəlxalq təcrübəni öyrənməkdir. Biz islamşünaslıq və dinşünaslıqla bağlı ixtisasların standartlarını hazırlayarkən beynəlxalq təcrübəni öyrəndik. Biz Avropanın, Amerikanın, xüsusilə beynəlxalq təhsil müəssisələrinin (Oxford, Kembric), eyni zamanda Orta Asiyada müəyyən dini təhsil müəssisələrinin, Türkiyənin, Ərəb ölkələrinin və s. bütün bunların hamısının təcrübəsini öyrəndik və standartları hazırlanarkən bu məsələləri nəzərdən keçirdik. Ümumiyyətlə biz bir çox ölkələrin bu sahədə geniş təcrübəsini nəzərə alaraq əməkdaşlığa başlamışıq. Artıq bir sıra ölkələrlə danışıqlar gedir və bir sıra ölkələrin səfirləri AİI-də olub. Bunlara misal olaraq İtaliyanın, Türkiyənin, Sudanın, Fələstinin eyni zamanda digər müsəlman ölkələrin səfirlərini göstərə bilərik. Hazırda biz Türkiyənin, Ərəb ölkələrinin, Rusiyanın, Avropanın bir sıra universitetləri ilə danışıqlar aparırıq və gözləyirik ki, yaxın vaxtlarda biz onlarla müəyyən sənədlərin imzalanmasına başlayacayıq.

Qeyd edim ki, bir neçə gün əvvəl mən Rusiyanın Perm şəhərində bir konfransda iştirak etdim. Biz orada Moskvanın İslam İnstitutu ilə danışıqlar apardıq. Yaxın vaxtlarda qarşılıqlı səfərlər nəzərdə tutulur. Eyni zamanda yaxın günlərdə AİI-nin əməkdaşlarının Türkiyəyə, digər müsəlman ölkələrinə səfərləri nəzərdə tutulur. Artıq biz müəyyən ölkələrin Rusiyanın, Türkiyənin bəzi universitetlərindən protokol, memorandum layihələrini almışıq və onların üzərində iş gedir. Biz yaxın aylarda onların imzalanmasını həyata keçirəcəyik.

***- Bəzi qruplar var ki, onlar din pərdəsi altında gəncləri özlərinə aludə edərək, öz çirkin məqsədlərinə yönəldirlər. Sizin buna münasibətini necədir?***

- Ümumiyyətlə İnstitutun əsas məqsədi şəxsiyyət yetişdirməkdir. Bu elə bir şəxsiyyət olmalıdır ki, onun həm dərin dini, dünyəvi bilikləri olmalıdır, həm də yüksək intellekti, zəngin dünyagörüşü olmalıdır. Beləcə İnstitutu bitirən şəxs artıq sadaladığımız xüsusiyyətləri ilə seçilmələdir. Bu gün dünyada bu proses çox sürətlə gedir. Biz analiz etdikdə görürük ki, bir sıra müsəlman ölkələrində din amili çox məharətlə istifadə olunur. Biz Suriyada, İraqda və digər müsəlman ölkələrində qarşıdurmaları zaman-zaman müşahidə edirik. Bu gün sosial şəbəkələrdən çox aktiv şəkildə istifadə olunur və gəncləri bu sahələrə cəlb etməyə çalışırlar. Bu gün biz öz fəaliyyətimizdə də işimizi elə qururuq ki, davamlı olaraq tələbələrlə ünsiyyətdə oluruq, onlarla görüşlər keçiririk, qayğıları ilə maraqlanırıq və davamlı olaraq onlarla izahat işləri aparırıq. Çünki bu gün çox güclü informasiya axını var və onun da gənclərə təsir imkanları mövcuddur. Bu baxımdan da davamlı olaraq onlarla ünsiyyətdə olmaq, maarifləndirmə tədbirlərinin aparılması xüsusi əhəmiyyət daşıyır.

Xüsusi olaraq vurğulamaq istərdim ki, bu cür gəncləri bir çox hallarda dini onlara yalnış çatdırmaqla bu yola sövq edirlər. Artıq Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi bu sahədə bir neçə film hazırlayıb. Bu gün də AİI-də DQİDK-nın yeni hazırladığı "Vəhdət" filminin nümayişi olacaq. Biz onunla bağlı bu gün geniş tədbir keçirəcəyik. Biz davamlı olaraq tələbələri Azərbaycanın müxtəlif bölgələrinə səfərlərə aparırıq. Onların sırf azərbaycançılıq, Vətən sevgisi ruhunda böyüməsi üçün gərəkən bütün işləri görürük. Eyni zamanda biz 9 noyabr Bayraq Günündə tələbələrimizi Cocuq Mərcanlıya apardıq. Burada əsas hədəflərdən biri tələbələrin milli, vətənpərvər, dövlətə bağlı ruhda böyüməsidir. Biz həmişə deyirik ki, gənclər gələcəyin idarəçisidirlər. Ona görə də onlarla sıx işləmək, ünsiyyətdə olmaq bizim üçün çox vacibdir.

***- Son olaraq Azərbaycan İlahiyyat İnstitutu ilə Media arasında əlaqələr hansı formada qurulub və əməkdaşlıq necə aparılır?***

- Ümumiyyətlə AİI yarandığı gündən media ilə şəffaf və açıq münasibətlərə çox böyük önəm veririk. Bizim gördüyümüz işlərin hamısı davamlı olaraq mediada, müxtəlif mətbuat orqanlarında işıqlandırılır. Həmçinin biz müasir dövrün nailiyyətlərindən də bəhrələnirik və bütün fəaliyyətimizi sosial şəbəkələrdə - "facebook"da, "intagram"da və digər şəbəkələrdə işıqlandırmağa çalışırıq. Bundan əlavə ötən ay mətbuatın tanınmış nümayəndələri AİI-də oldu. Mətbuat Şurasının sədri, millət vəkili Əflatun Amaşov, "SƏS" Media Qrupunun rəhbəri Bəhruz Quliyev burada oldular. Biz hesab edirik ki, bu gün bizim uğurumuz eyni zamanda bilavasitə fəaliyyətimizin mediada işıqlandırılması ilə bağlıdır. Təbii ki, bu istiqamətdə də biz bütün fəaliyyətimizi çalışırıq ki, mətbuatda, sosial şəbəkələrdə yayaq. Yeri gəlmişkən qeyd edim ki, bizim İnstitutun fəaliyyətini ən aktiv və ən çox işıqlandıran qurumlardan biri də "Səs" İnformasiya Agentliyidir. Agentlik bizimlə sıx əməkdaşlıq edir. Biz bu gün də mətbuatla əməkdaşlığa böyük önəm veririk. Çünki mətbuatın rolu çox böyükdür. Bu gün sosial şəbəkələr müəyyən mənada mətbuatı bəzən sıxışdırır, bəzən orada geniş şəkildə məlumatlar gedir və təbliğatlar aparılır. Bu baxımdan da fəaliyyətin mətbuatda işıqlandırılması, görülən işlərin orada əksini tapması bizim üçün çox böyük əhəmiyyət daşıyır.

***Ceyhun Rasimoğlu***

## Ərdoğan: "Türkiyə soyqırımı törətməkdə ittiham edilə bilməz"



Türkiyə prezidneti Rəcəb Tayyib Ərdoğan Buenos-Ayresdə G20 sammitinin yekunları ilə bağlı keçirilən mətbuat konfransında erməni mənşəli aregntinalı jurnalistin sualına cavab olaraq Türkiyənin 1915-ci ildə "erməni soyqırımı" ilə bağlı olmadığını bildirib. "Türkiyə ermənilərə qarşı soyqırım törətməkdə ittiham edilə bilməz. Bu müzakirələri tarixçilərə buraxaq. Bu, bizim tariximizin hissəsi deyil, lakin məsələ ilə bağlı istənilən müzakirəyə hazırıq ", - deyə Ərdoğan qeyd edib. Türkiyə prezidenti ölkənin hakimiyyət orqanlarının ölkədəki erməni əhalisinə qarşı heç vaxt ayrı-seçkilik edilmədiyini və hazırda ölkəsində 100 minə yaxın ermənin yaşıdığını söyləyib.

## Robert Köçəryanın komplementarizmi: - ABŞ-dan Den Bilzeryan, RF-dən Konstantin Zatulin



"Lazarev klubu"nun Yerevanda ilk iclasında bəlli oldu ki, bu Ermənistanın 2-ci prezidenti R.Köçəryanın siyasi aktivləşməsi üçün nəzərdə tutulmuş platformadır. R.Köçəryan etiraf etdi ki, bir neçə ay öncə K.Zatulin Yerevanda ona "Lazarev klubu" ideyasını təklif edib və R.Köçəryan hərtərəfli dəstək verəcəyinə vəd verib. Hərtərəfli dəstək maliyyə dəstəyini də əhatə edir". Bunu SİA-ya açıqlamasında politoloq Mübariz Əhmədoğlu deyib. M.Əhmədoğlu bildirib ki, "Lazarev klubu" ideyasının müəllifi R.Köçəryandır: "Sadəcə K.Zatulin vasitəsilə reallaşdırır. Həmin dövrdə R.Köçəryanın gəlini hətta Den Bilzeryanı gözəlçələri ilə birlikdə Ermənistana gətirtmişdi. D.Bilzeryan və onun gözəlçələri Dağlıq Qarabağ ermənilərini də "paklaşdırdılar". D.Bilzeryana müvafiq olaraq Moskvadan da K.Zatulini dəvət edir".

Politoloq qeyd edib ki, Köçəryanın ABŞ-la Rusiya arasında oyun oynaması və ya Rusiyanın maraqlarını ABŞ-a satması üzərində qurduğu siyasət kimə az bəllidirsə K.Zatulinə hamıdan çox bəllidir: "Amerikanın Ermənistandakı səfirliyinin binası həcminə görə dünyada ikincidir. Amerika Ermənistanda belə səfirlik binası tikmək istəmirdi. Bunu R.Köçəryan tikdi. K.Zatulin ABŞ səfirliyinin binası tikilərkən oranı ziyarət edib.

YUKOS-CİS vasitəsilə Xodorkovskinin 5 milyard dollar pulunu Rusiyadan Qərbə qaçırdan R.Köçəryandır. "Sibir" aviakompaniyası daxil olmaqla Rusiyanın şirkətlərini müflisləşdirib, Ermənistandan qovan da R.Köçəryandır. Əlbəttə Rusiyanın da xeyrinə başa düşülən addımlar atıb. K.Zatulin R.Köçəryanın şəxsi politoloqu qismində onun Amerika yönümlü, anti-Rusiya addımlarının Kremldə müsbət qəbul olunmasına şərait yaradıb. Məhz bu keyfiyyəti ilə K.Zatulin R.Köçəryanın qarşısında sınaqdan çıxıb.

K.Zatulinin də R.Köçəryandan ehtiyacı böyükdür. Yetkinlik yaşına çatmış K.Zatulin həm ər, həm də məşuqdur. İki ailəsi var. Bəzi ailə üzvləri, nəvələri Qərbdə yaşayır, bəziləri bu arzudadır. Pula ehtiyac böyükdür. K.Zatulinin üçün də R.Köçəryan yaxşı donordur. Ona görə R.Köçəryan özü prezidentliyini S.Sərkisyana verməsi də K.Zatulində qısqanclıq yaratdı. O zamankı Baş nazir Serj Sərkisyanın kabinetinə girib onu hədələdi.

Zatulinin Rusiya dövlətçiliyinə münasibəti ən yaxşı halda sıfırdır, hətta mənfidir. İndiki vəziyyətdə Azərbaycanın KTMT-yə üzvlüyü Rusiyanın bəzi siyasiləri, o cümlədən K.Zatulinin deputat yoldaşları aktuallaşdırıblar. N.Paşinyan, prezident A.Sərkisyan, XI nazirı Z.Mnasakanyan dəfələrlə bildiriblər ki, Azərbaycan KTMT-nin üzvü olmayacaq, Ermənistan konsensus verməyəcək. K.Zatulin sayı təxminən 100-ə yaxınlaşan bu mövzuda bəyanatların heç birinə bu günədək reaksiya verməyib. Axı Azərbaycanın KTMT üzvlüyü Rusiyanın arzusudur, bunun əleyhinə gedən də özünü Rusiyanın strateji müttəfiqi adlandıran Ermənistandır. Bir şey dəqiq aydındır K.Zatulin Ermənistanın lobbiçiliyi ilə məşğul olduğu dövrdə Rusiyanın Ermənistandakı reytinqi aşağı düşüb. Kreml Ermənistanda Rusiyanın mövqeyini gücləndirmək istəyisə K.Zatulin kimi müftəxorları, Rusiya dövlətinin maraqlarını pula satanları Ermənistandan qovmalıdır".

# Tural Sadıqlı qardaşı Elgiz Sadıqovu həbs etdirib?

## Yaxud danılmaz faktlar nəyi göstərir?

***Sirr deyil ki, ötən əsrin 80-ci illərinin sonları-90-cı illərinin əvvəllərində ölkəmizdə "ura-patriotizm" adı altında "siyasi formul" əmələ gəlmişdi. Daha dəqiq desək, bu "siyasi formula" daha kimlər aid edilməmişdilər -Qarabağ cəbhəsində şəhidlərin nəşlərini ailələrinə pulla satan ikiayaqlı goreşənlərdən tutmuş məişət cinayətkarlarına qədər, adları belə anlaşılmayan partiya sədrlərindən tutmuş falçılara qədər hər kəs sadə xalqın gözü qarşısında "təmiz şəxsiyyət" kimi göründü. Azərbaycanın dünya ölkələri arasındakı nüfuzu çox aşağı olduğu vaxtlara təsadüf edən bu zamanlarda müəyyən xarici qüvvələr də boş dayanmırdılar. Onlar yenicə müstəqillik əldə etmiş dövlətimizə qarşı öz çirkin planlarını və məqsədlərini reallaşdırmaqdan ötrü məhz bu kimi "təmiz şəxsiyyətlər"dən maksimum şəkildə istifadə etməyə çalışırdılar.***

Bu gün nə həmin illərdir, nə də Azərbaycan o Azərbaycandır. Hətta bir neçə il bundan öncəyə qədər müxtəlif adlarda təsis edilmiş "5-ci kolon" belə, xarici siyasətimizin uğurları qarşısında diz çöküb, siyasi ölümə məhkum olub. Artıq nə bəlli xarici təşkilatların "siyasi məhbus" haray-həşirləri, nə də digər şivənləri onlara heç bir müsbət nəticələr vəd etmir. Ancaq buna baxmayaraq, düşmən iş başındadır və onun "ipini" boş buraxmaq da olmaz. Xüsusilə, erməni lobbisinin himayəsi altında fəaliyyət göstərən "siyasi mühacir" adlı Vətən xainləri bu və ya digər şəkildə canlanmağa, Avropanın müxtəlif ölkələrinə səpələnərək, qrant qazanmağa cəhdlərini davam etdirirlər. Amma necə və hansı üsullarla..?

### Onları maraqlandıran yeganə şey (!) qrantdır, o məsələyə ayrılan qrant ki, fahişəyə ödənilən pul belə, ondan təmizdir!

Biz uzun müddətdir ki, bu barədə yazır, müxtəlif faktları ortaya çıxarır və onların hər birinin üzərində ayrı-ayrılıqda fikirlərimizi ictimai rəyə çatdırırıq. Məsələn, sosial şəbəkələrdə "klaviatura qəhrəmanlığı" göstərənlərdən tutmuş, Avropa ölkələrinin küçələrində "ayı min bir oyun eylər" deyimi çərçivəsində, əslində, meymunluq, klounluq sərgiləyənlərə qədər kifayət qədər dəlillər göstərilib. O.Temurxanın, V.İsgəndərlinin, T.Sadıqlının, Məhəmməd Mirzəlinin və sairlərinin son vaxtlar qrant üstündə bir-birlərini, sözün əsl mənasında, qırmaları barədə də son günlər isbatlı yazılar mediamızda işıqlandırılıb. Bir vaxtlar dövlət xadimlərinə, nüfuzlu şəxsiyyətlərə qarşı söyüş söyənlər, indi özlərini təhqir, həqarət atəşlərinə tuturlar, olmazın ifadələrlə bir-birlərinin üzlərinə belə tüpürürlər. Bax, həqiqət də bu tüpürmələrdən, söyüşlərdən doğmağa başlayıb. Daha doğru desək, onları, əslində, nə xalq, nə millət, nə də dövlət maraqları qətiyyən maraqlandırmır. Onları maraqlandıran yeganə şey (!) qrantdır, o məsələyə ayrılan qrant ki, fahişəyə ödənilən pul belə, ondan təmizdir!




### Məhz Tural Sadıqlının "ADDA" adlı saxta qurum yaradıb, ona rəhbərlik etməsi sonradan onun Məhəmməd Mirzəli ilə "çaşka-lojkalığına" son qoydu

Qrant üstündə mərhum atasının məzarı adından sui-istifadə edərək, onun "təhqir edilməsi" kimi iyrənc, yalan "ittihamlarla" sosial şəbəkələrdə çığır-bağır salan Vidadi İsgəndərli adındakı binəcib övladdan tutaraq, qardaşının həbs olunmasını özünə siyasi dividend qazanmağa çalışan T.Sadıqlıya qədər - hər biri nə qədər alçaq, ləyaqətsiz və vicdansız ünsürlər olduqlarını sübuta yetirmiş oldular.

Bir xatırlatmanı da etmək pis olmazdı. Məhz T.Sadıqlının "ADDA" ("Avropa Demokratiyaya Dəstək Alyansı") adlı saxta qurum yaradıb, ona rəhbərlik etməsi sonradan onun M.Mirzəli ilə "çaşka-lojkalığına" son qoydu. Yəni son günlər mətbuatda onlar barəsində gedən ard-arda faktlar nəzərdə tutulmaqdadır.

Qeyd edək ki, bu, həmin T.Sadıqlıdır ki, qardaşı Elgizin həbs olunmasından sevincək olmuşdu. Halbuki Elgiz Sadıqov narkotik ittihamı ilə həbs edilmişdi. Lakin Tural dərhal sosial şəbəkələrə çıxıb, ard-arda hədyanlar səsləndirib, bununla qrant aldığı təşkilatlardan növbəti pulları qazanmağa başlamışdı. Həmin pulları ki, indi M.Mirzəli ilə bölmək fikrindən daşınıb - 80 min avro..!

İndi isə keçək bu məsələnin digər tərəfinə. O da sirr deyil ki, "SƏS" qəzeti olaraq, hələ bu ilin martında Tural Sadıqlının cinayətkar ailəsi ilə bağlı bir sıra xəbərləri oxucuların diqqətinə çatdırmışdıq. "Tural Sadıqlı - cinayətkar şəcərənin xain övladı" başlıqlı məqalədə onun istər ata, istərsə də ana xətti ilə babalarının cinayətkar olmalarını sübuta yetirən dəlilləri diqqətə çatdırmışdıq.

Onu da qeyd edək ki, T.Sadıqlının atası Əlövsət Sadıqlı da qrantyeyən QHT-çi kimi tanınır və bunu da M.Mirzəli sosial şəbəkə vasitəsi ilə bəyan etmişdi.

### Sadıqlılar "şəcərəsindən" xatırlatma...

Qeyd edilmişdi ki, Tural və Elgizin ata xəttilə babaları Əhəd Sadıqov da nəvələri kimi "repressiya qurbanı" olub. Belə ki, 1951-ci ilin oktyabrında, o, azyaşlı qızı zorladığına görə, azadlıqdan məhrum edilib. O zamankı sovet təcridxanalarında belə adamlarla necə davranıldığı barədə deyilənlərin üstündən keçək. Ancaq Əhəd kişi türmədə hansı zədələr almışdısa, azadlıqda rahat yaşaya bilmirdi. Elə buna görə də, o, ikinci dəfə 1961-ci ildə quldurluğa, üçüncü dəfə isə 1969-cu ildə başqasına ağır bədən xəsarətləri yetirməyə görə həbsə alınır. Tural və Elgizin ana xəttilə babaları Səməd Hümbətov da "repressiya qurbanı" olub, yəni 1976-cı ildə törətdiyi cinayətə görə həbs olunub.

İndi isə E.Sadıqov artıq həyatının üçüncü məhkumluğunu yaşayır. Belə ki, o, ilk dəfə 1998-ci ildə, hələ qardaşına görə "siyasi əzabkeş" olmaq ağlının ucundan keçmədiyi zamanlarda məhkum edilmişdi. O zaman Bakı qarnizonunun hərbi tribunalı Elgizi fərariliyə görə iki il azadlıqdan məhrum etmişdi. İkinci dəfə isə, o, yenidən başqa cinayət maddəsi ilə həbsdə yatıb. Xatırladaq ki, həmin maddə adam oğurluğundan bəhs edir, konkret halda isə, adını yazmaq istəmədiyimiz bir qızın zorla qaçırılmasından söz gedirdi. Lakin bu qardaşlar, həqiqətən də, Azərbaycan dövlətinin humanistliyini görməzlikdən gəliblər.

Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət İşləri üzrə Məhkəmə Kollegiyasının 26 may 2009-cu il tarixli 1(102)-266/09 qərarında deyilirdi: "Onun əməli CM-nin 29, 144.2.3-cü maddəsi ilə düzgün tövsif olunmuşdur. Həmin maddə ilə məhkəmə E.Ə.Sadıqova cəza təyin edərkən barəsində CM-in 62-ci maddəsini tətbiq edib maddənin sanksiyasında nəzərdə tutulmuş aşağı həddən də aşağı cəza təyin edilmişdir". Amma Sadıqovların məcburi köçkün ailəsi olması, bu cinayət işi üzrə Elgizin doğma qardaşı Turalın da eyni maddə ilə məhkum edilməsi, ailəsinin olduqca ağır vəziyyətdə yaşaması müstəsna hal kimi qiymətləndirilmiş və onun barəsində azadlıqdan məhrumetmə cəzası beş ildən üç ilə endirilmişdi.

O cümlədən, Sadıqovlara yaxın şəxslər bu humanist addımın atılmasına qızın ailəsinin səbəb olduğunu deyirlər. Sadıqovlardan birinin adına ləkə saldıqları qızla ailə quracağı vəd edildiyindən, qız belə cinayətlərdə ağırlaşdırıcı hal kimi nəzərə alınacaq ifadə verməmişdi.

Beləliklə, bütün faktlar ortalıqdadır və bu gün bir-birlərini asıb-kəsənlərin, əslində, hər biri eyni tipajlı ünsürlər yığnağıdırlar. Onların hər birinin şəxsi həyat dəftərlərini axtarıb-arasaq, nə qədər çirkin məxluqatlar olduqlarını bir daha görərik. Ümumiyyətlə, belələrinin hələ də üzə çıxıb, özlərindən "qəhrəman" düzəltmək cəhdləri get-gedə daha izafi iyrənclik təsiri bağışlayır. Hər halda, nə qədər çalışsalar belə, yenə də heç nəyə nail ola bilməyəcəklər. Çünki məğlubiyyət və rüsvayçılıq onların birbaşa alınlarına ləyaqətsizlik möhürü kimi vurulub.

**Rövşən NURƏDDİNOĞLU**

# Gəncə hadisələri ilə bağlı 22 şəxs məhkəmə məsuliyyətinə verilib

***Cari il iyulun 10-da Gəncədə radikal diniyönümlü bir qrup şəxs tərəfindən ictimai asayişin pozulmasına yönələn zorakılıq aktları, hakimiyyət nümayəndələrinə silahlı müqavimət göstərilməsi, o cümlədən müxtəlif dərəcəli bədən xəsarətləri yetirilməsi, iki polis zabitinin qəsdən öldürülməsi ilə müşayiət olunan kütləvi iğtişaşlar törədilməsinə görə Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsində cinayət işi başlanılaraq istintaq aparılır.***

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin, Dövlət Təhlükəsizliyi Xidmətinin və Baş Prokurorluğun mətbuat xidmətlərinin AZƏRTAC-a daxil olan birgə məlumatında bildirilir ki, ötən müddətdə hər üç qurumun təcrübəli əməkdaşlarından ibarət istintaq-əməliyyat qrupu tərəfindən həyata keçirilmiş tədbirlərlə Maarif Hacıyevin və Xəyal Qafarovun, onlar ilə eyni cinayətkar niyyətləri və radikal dini baxışları bölüşən Şahlar Rzayev, Rəşad Böyükkişiyev, Kamal Quliyev və digər şəxslərlə cinayət əlaqəsinə girib sosial şəbəkələrdə, şəxsi görüş və söhbətlərdə zorakılıqlara və kütləvi iğtişaşlara çağırış xarakterli məlumatlar yaymaları, bu məqsədlə insanları iyulun 10-da saat 20 radələrində Gəncə Şəhər İcra Hakimiyyətinin inzibati binasının qarşısındakı meydana toplamaq barədə çağırışlar yaymalarına əsaslı şübhələr müəyyən edilib.



İstintaq araşdırmaları ilə, həmçinin adları çəkilən şəxslərin Gəncə şəhərində ictimai asayişi kobud şəkildə pozmaları, zorakılıqlar törətməsi, o cümlədən hakimiyyət nümayəndələrinə həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etməklə silahlı müqavimət göstərməsi ilə müşayiət olunan kütləvi iğtişaşlar təşkil etmələrinə, həmin hadisələrdə fəal iştirakına, Xəyal Qafarovun, Samir İbrahimovun və Əli Rzayevin həm də qanunsuz olaraq əl qumbaraları, avtomat silahlara aid patronlar, külli miqdarda narkotik vasitə əldə edib saxlamalarına, gəzdirmələrinə və daşımalarına əsaslı şübhələr müəyyən olunub.

İş üzrə barələrində həbs qətimkan tədbiri seçilmiş, Cinayət Məcəlləsinin 220.1-ci (Kütləvi iğtişaş) və 315.2-ci (Hakimiyyət nümayəndəsinə qarşı həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etmə) maddələri ilə təqsirləndirilən Maarif Hacıyev, Şahlar Rzayev, Ruslan Həsənov, Tural Bayramov, Nizami Əkbərov, Kamal Məhərrəmov, Seymur Əliyev, Toğrul Verdiyev, Orxan Yağnəliyev, Araz Həsənov və Vaqif Əşrəfov barəsində ayrıca icraata ayrılmış cinayət işinin istintaqı noyabrın 26-da Gəncə Ağır Cinayətlər Məhkəməsinə göndərilib. Bundan başqa, Cinayət Məcəlləsinin 220.1-ci, 228.1-ci (Qanunsuz olaraq silah, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə), 234.4.3-cü (Bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən qanunsuz olaraq külli miqdarda narkotik vasitələrin əldə olunması) maddələri ilə təqsirləndirilən Xəyal Qafarov, 220.1-ci və 315.2-ci maddələri ilə təqsirləndirilən Kamal Quliyev, Raul Süleymanov, Ülvi Həsənov, Vüqar Allahverdiyev, 220.1-ci, 228.1-ci, 234.4.3-cü və 315.2-ci maddələri ilə təqsirləndirilən Samir İbrahimov, 220.1-ci, 234.1-ci və 315.2-ci maddələri ilə təqsirləndirilən Əli Rzayev, 220.1-ci maddəsi ilə təqsirləndirilən Rauf Qurbanzadə, Mireşqin Seyidov, Kamal Məmmədtağıyev və Qadir Hüseynov barəsində ayrıca icraata ayrılmış cinayət işinin istintaqı da noyabrın 30-da tamamlanaraq baxılması üçün Gəncə Ağır Cinayətlər Məhkəməsinə göndərilib.

# Əbədiyaşar Lider, ölməz Şəxsiyyət!

## Ulu Öndər Heydər Əliyevin dövlət və millət qarşısındakı xidmətləri zaman keçdikcə daha aydın görünür

***Ötən əsrin əvvəlləri kimi, sonları da Azərbaycan üçün mürəkkəb və ziddiyyətli, dinamik və taleyüklü proseslərlə səciyyələnən zəngin dövlət quruculuğu dövrü kimi tarixə qovuşmuşdur. Təbiidir ki, tarixə qovuşma prosesi müəy+yən zaman daxilində baş verir və bu zamandan maksimum səmərəli yararlanma, onu xalqın, millətin inkişafına, gələcəyinə, dövlətin möhkəmləndirilməsinə yönəltmək missiyası şəxsiyyətlərin fəaliyyəti və adları ilə bağlı olur. Ulu Öndər Heydər Əliyev şəxsiyyət kimi tarixi hadisədir. Tarix şəxsiyyəti, bu cür şəxsiyyətlər isə tarixi yaradır. Müdriklər demişlər ki, şəxsiyyəti mühit və hadisələr yetirir, ancaq hadisələri də şəxsiyyətlər idarə edir və hadisələr özü də onların izini daşıyır.***



Ümummilli Lider Heydər Əliyev öz parlaq siyasi zəkası və istedadı sayəsində yeni Azərbaycanı, onun bugünkü gerçəkliklərini yaradan və gələcəyə aparan yolları müəyyən edən Şəxsiyyətdir. Məhz buna görə də Azərbaycan tarixinin 1969-cu ildən bəri yaşanan dövrü Ulu Öndər Heydər Əliyevin adı ilə sıx bağlıdır və tariximizə Heydər Əliyev dövrü kimi həkk olunub. Bu dövrün Azərbaycanın gələcək tarixi taleyi baxımından başlıca məzmunu isə azərbaycançılıqdır. Dahi Öndər Heydər Əliyevin dövlətçilik strateji proqramında azərbaycançılıq məfkurəsi xüsusi yer tutub. Heydər Əliyevin 1987-ci ilin oktyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun və şəxsən Baş katib Mixail Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz əlaməti olaraq tutduğu vəzifələrdən istefa verməsi, 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciə ilə əlaqədar ertəsi gün Azərbaycanın Moskvadakı nümayəndəliyində bəyanatla çıxış edərək, Azərbaycan xalqına qarşı törədilmiş cinayətin təşkilatçıları və icraçılarının cəzalandırılmasını tələb etməsi, Dağlıq Qarabağda yaranmış kəskin münaqişəli vəziyyətlə bağlı SSRİ rəhbərliyinin ikiüzlü siyasətinə etiraz əlaməti olaraq, 1991-ci ilin iyulunda Sovet İttifaqı Kommunist Partiyasının sıralarını qətiyyətlə tərk etməsi vətənpərvərliklə və azərbaycançılıq məfkurəsi ilə bağlı idi. Bu, əsl vətənpərvərlik mövqeyinin nümayişi idi.

Azərbaycanda dövlətçilik ənənələrinin XX əsrin sonlarında bərpa edilib zənginləşdirilməsi, Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, onun əbədi, dönməz xarakter alması, ölkəmizin dinamik iqtisadi inkişaf yolu ilə inamla irəliləməsi, onun beynəlxalq nüfuzunun sürətlə artması Heydər Əliyevin səmərəli fəaliyyəti sayəsində mümkün olub. O öz müdrik rəhbərliyi, siyasi uzaqgörənliyi, qətiyyəti və əzmkarlığı ilə zəmanəmizin görkəmli siyasi xadimi kimi tanınmış, Azərbaycan xalqının Ümummilli Liderinə çevrilmişdir. Bu baxımdan, onu da qeyd edə bilərik ki, Azərbaycanın müasir dövlətçiliyi tarixində müstəqillik dövrünün arxada qalan hər ilinin öz yeri vardır. Müstəqil Azərbaycanın keçdiyi sınaqlar, dövlətçiliyimizin ən ağır günlərində Heydər Əliyev qətiyyəti və müdrikliyi xalqımızı və Azərbaycanımızı həmişə xilas edib. Ümummilli Liderimiz, keçilməsi mümkün olmayan maneələri dahiyanə yanaşması ilə, böyük əzm və səylə qət edib. Ulu Öndər Heydər Əliyevin bir tarixi kəlamı daim dillər əzbəri olmaqdadır: "Ağıl olan yerdə, zora ehtiyac yoxdur. Tarix həmişə hər şeyi öz yerinə qoyur".

Məhz Ulu Öndərimizin uzaqgörən müdrik siyasəti nəticəsində müstəqil Azərbaycan dünya xalqları içərisində inkişaf etmiş dövlətlər birliyində öz layiqli yerini tutmaq, tərəqqi etmiş ölkələr sırasına qoşulmaq yolunda böyük inam və qətiyyətlə irəliləyib. Qısa müddətdə Azərbaycanın beynəlxalq imici dəyişdi, ölkəmiz dünyanın siyasi və iqtisadi arenasının fəal subyektlərindən birinə çevrilmişdi. Bütün ölkədaxili, regional və coğrafi-siyasi maneələrə baxmayaraq, Azərbaycan dövlət quruculuğu və iqtisadi inkişaf sahəsində böyük nailiyyətlər əldə etməyə başladı. Belə ki, Heydər Əliyevin hakimiyyəti dövründə ölkədə siyasi plüralizm yaranmağa başladı, cəmiyyət əsl demokratiya yolu ilə inkişaf yoluna çıxdı.

Dahi Öndər Heydər Əliyevin dövlət və xalq qarşısındakı tarixi xidmətlərini heç kim inkar edə bilməz. Onun ölkədə vətəndaş həmrəyliyinə nail olunması, sabitlik yaradılması, müstəqil dövlət qurulması, iqtisadi-sosial sahədə, neft strategiyasında tarixi addımlar atılması, bütün sahələrdə mühüm islahatlar həyata keçirilməsi və beynəlxalq aləmdə respublikanın mövqeyinin möhkəmləndirilməsi sahəsində gördüyü işlər unudulmazdır. Ulu Öndər ölkədə bazar iqtisadiyyatının təşəkkül tapmasında, Azərbaycana xarici investisiyaların cəlb olunmasında, beynəlxalq iqtisadi əlaqələrin genişləndirilməsində, xalqın rifah halının yüksəldilməsində çox böyük işlər gördü. Məhz Heydər Əliyevin sayəsində Azərbaycan inkişaf etmiş və sivil dövlətlər sırasına çatmışdır. Ümumiyyətlə, siyasi, iqtisadi, sosial, mədəni həyatda və beynəlxalq sahədə kifayət qədər nailiyyətlər qazanılmışdırsa, dövlətçiliyin gücləndirilməsində, ölkənin tərəqqisində nə qədər yeniliklər, uğurlar əldə edilmişdirsə - bunlar Ulu Öndər Heydər Əliyevin sayəsində mümkün olmuşdur. Belə ki, müdrik şəxsiyyət Heydər Əliyevin rəhbərliyi ilə aparılmış məqsədyönlü siyasət nəticəsində, ölkənin iqtisadi həyatında qazanılmış ən mühüm uğurlardan biri də dünyanın inkişaf etmiş nüfuzlu şirkətləri ilə bağlanmış neft müqavilələri oldu. Bu müqavilələr Azərbaycan iqtisadiyyatının gələcək inkişafı üçün geniş perspektivlər açdı. Ulu Öndər Heydər Əliyevin neft strategiyası dövlətimizin müstəqilliyinin qarantına çevrilməklə yanaşı, azad iqtisadi münasibətlər mexanizmlərini də hərəkətə gətirdi, ölkəmizin dünya iqtisadi məkanına dinamik inteqrasiyasını və xalqımızın rifahının artması üçün çox önəmli olan xarici sərmayələrin cəlb edilməsini təmin edi. Bütün bunlar dövlətimizin daxili qüdrəti ilə yanaşı, beynəlxalq nüfuzunun artırılmasına xidmət etdi ki, bu gün bizlər bunun şahidlərinə çevrilmişik. "Əsrin müqaviləsi"nin imzalanması sonrakı pproseslərin sürətlənməsinə nəhəng layihələrin reallaşmasına kifayət qədər zəmin yaratmış oldu. Əbəs deyil ki, "Əsrin müqaviləsi"nin Azərbaycanın parlaq inkişafı üçün nə demək olduğunu hamı anlamalıdır" kəlamları da, bilavasitə Ümummilli Lider Heydər Əliyevə məxsusdur.

Təbii ki, 2003-cü ilə qədərki tarixi nailiyyət bu dövrə qədər keçən son on ildə hüquqi dövlət quruculuğu, iqtisadi, sosial, humanitar və xarici siyasət sahəsində aparılan müdrik siyasi xəttin məntiqi nəticəsində qazanıldı. Azərbaycanın müharibə şəraitində yaşamasına və keçid dövrünün mahiyyətindən doğan çətinliklərə baxmayaraq, bu müddət ərzində, Heydər Əliyevin gərgin və yorulmaz fəaliyyəti demokratik təsisatların, vətəndaş cəmiyyətinin formalaşması prosesinə, ictimai-siyasi sabitliyin və güclü iqtisadi potensialın yaranmasına gətirib çıxardı. Bərqərar olmuş ictimai-siyasi sabitlik, əlverişli iqtisadi mühit xarici sərmayələrin həcminin artmasına səbəb oldu.

Eyni zamanda, siyasi sistemin demokratik prinsiplər əsasında inkişafı, cəmiyyətimizdə ümumbəşəri dəyərlərin dərin kök salması Azərbycanın beynəlxalq aləmə sıx inteqrasiyasına və formalaşmaqda olan demokratik dövlət kimi tanınmasına yol açdı. Azərbaycanın dövlət müstəqilliyinin qorunması və təhlükəsizliyinin möhkəmləndirilməsi, dövlətlərarası əlaqələrin inkişaf etdirilməsi, beynəlxalq və regional təşkilatlarla səmərəli əməkdaşlıq ölkəmizin beynəlxalq münasibətlər sistemində layiqli yer tutmasını təmin etdi. Beləliklə, Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi 1993-2003-cü illərdə müstəqil dövlətimizin tərəqqisi üçün möhkəm təməl yaradıldı. Ulu Öndər öz həyatının uğurlarını xalqına arxalanmaqda görərək deyib: "Mənim həyat amalım, bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi-siyasi və mənəvi inkişafına xidmət edir. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda,

# Əbədiyaşar Lider, ölməz Şəxsiyyət!

*Ulu Öndər Heydər Əliyevin dövlət və millət qarşısındakı xidmətləri zaman keçdikcə daha aydın görünür*

ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da, mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib”.

Söz yox ki, xilaskarlıq missiyasının banisi kimi tanınan Ulu Öndər Heydər Əliyev XX əsrin son dərəcə mürəkkəb və ziddiyyətli tarixi şəraitində fəaliyyət göstərmişdir. Artıq qeyd etdiyimiz kimi, Azərbaycanın ən yeni tarixinin bütöv bir qərinəsi Heydər Əliyev şəxsiyyəti ilə, Onun mübarizə yolu və böyük quruculuq fəaliyyəti ilə sıx bağlıdır. Məhz dahi şəxsiyyət Heydər Əliyevin xalqın təkidli tələbi ilə ikinci dəfə siyasi hakimiyyətə gəlməsi Azərbaycanın müstəqillik tarixində yeni bir mərhələnin başlanğıcını qoydu. O dövrü bir anlığa xatırlayanda, göz önünə, ilk növbədə, ölkədə hökm sürən anarxiya və xaos, hərcmərclik və dərəbəylik gəlir. Bütün bunlara son qoymaq, ictimai-siyasi prosesləri normal məcraya yönəltmək hər kəsin işi deyildi və bu missiyanı öz Liderlik və Xilaskarlıq səyi və bacarığı sayəsində əbədiyaşar Ulu Öndər Heydər Əliyev üzərinə götürdü, bu dövləti əbədi, sarsılmaz və qüdrətli dövlətə, Azərbaycanın müstəqilliyini dünya müstəvisində reallığa çevirdi. Bəli, əsl həqiqətdir ki, bu böyük şəxsiyyət öz dərin zəkası, iti ağlı və mətin iradəsi ilə Azərbaycanımızı yüksəltdi, qorudu, müstəqilliyini yaşatdı və əbədiləşdirdi. İndi Azərbaycan adı Heydər Əliyev adı ilə qoşa çəkilir. Beləliklə, “Bu və ya digər xalqın böyüklüyü onun sayca çoxluğu ilə deyil, bəşəriyyətə bəxş etdiyi dühalarla ölçülür” - müdrik kəlamı təsdiqini tapır.

Xüsusilə, bu ərəfələrdə Naxçıvanda Yeni Azərbaycan Partiyasının yaradılması həmin xilasın başlanğıc nöqtəsi idi. Bu partiya xalqın partiyasına çevrilərək, xilaskarlıq missiyasının bayraqdarı rolunu oynadı. Məhz Ulu Öndərin tarixi şəxsiyyət kimi meydana çıxması Azərbaycanda yeni günəşin doğmasına və ölkəmizin parlaq gələcəyinin bərqərar olmasına təkan verdi.

Yeri gəlmişkən, Fransanın “Kuryer International” jurnalının 2003-cü il may nömrəsində nəşrin baş redaktoru Aleksandr Adler Ulu Öndər Heydər Əliyevə həsr etdiyi məqaləsində yazırdı: “Nə sülh, nə də firavanlıq gətirən tufanların tüğyan etdiyi müasir dünyada Heydər Əliyev kimi dövlət xadimləri həmişəkindən daha çox gərəkdir. Tanrı bu şəxsiyyəti təkcə öz xalqına deyil, həm də başqa xalqlara son dərəcə mürəkkəb tarixi bir məqamda göndərmişdir. O, bir sıra ciddi böhranlar keçirmiş və onları dəf etmişdir. O, bunların hamısına mətanətlə sinə gərmiş və onu mənən və cismən məhv etmək üçün göstərilmiş bütün cəhdlərə baxmayaraq, daha yüksəklərə qalxmışdır”.

Bu gün də Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi yol davam etdirilir. Azərbaycan inkişaf edir, ən uca zirvələrə qalxır, beynəlxalq aləmdə öz nüfuzunu daha da gücləndirir. İndi Heydər Əliyev ideyaları Azərbaycan dövlətinin strateji inkişaf xəttinin ideoloji əsaslarını təşkil edir. Onun xalqımız, Vətənimiz qarşısında ən böyük və müqəddəs borcu Onun məmləkətimizin nailiyyətlərini gələcəkdə yaşatmaq və daha da təkmilləşdirmək iqtidarında olan layiqli, ləyaqətli siyasi varisi - Cənab İlham Əliyevi yetişdirməsidir. Belə ki, cənab İlham Əliyev türk dünyasının ən qüdrətli sərkərdəsinin - Heydər Əliyev kimi azman siyasi liderin, qüdrətli zəka sahibinin yanında, siyasi kürəsində bərkimiş, yetkin dövlət başçısı olduğunu məsuliyyətli fəaliyyətində təsdiqləmişdir. Əgər bu gün Ulu Öndərin siyasi varisi, layiqli davamçısı Prezidenti İlham Əliyev bütün varlığı ilə müstəqil Azərbaycanımızın siyasi, iqtisadi və mədəni inkişafı istiqamətində həlledici əhəmiyyətə malik işlər görürsə, deməli, Heydər Əliyev ideyalarının həyata keçirilməsi başlıca vəzifə kimi öz aktuallığını saxlayır və xalq da öz Prezidentinin həyata keçirdiyi məqsədyönlü siyasəti dəstəkləyir. Artıq bu, bir reallıqdır ki, Azərbaycan Ümummilli Liderimizin müəyyən etdiyi strateji və alternativi olmayan siyasi xətt ilə inamla irəliləyir, dövlətimiz gənc və dərin zəkaya malik liderlə daha sürətlə inkişaf edir. Azərbaycan getdikcə qüdrətli və dayanıqlı ölkəyə çevrilməklə dünya miqyasında öz mövqeyini və yerini möhkəmləndirir. Ölkə Prezidenti İlham Əliyev vurğulayıb: “Mənim məqsədim budur ki, Azərbaycan xalqı daha da yaxşı yaşasın, əmin-amanlıq olsun, inkişaf olsun. Ölkəmiz daha da inkişaf etsin, güclənsin və Azərbaycan dünyada daha da möhkəm bir dövlətə çevrilsin”.

Artıq fəxrlə deyə bilərik ki, Azərbaycan möhkəm və qüdrətli dövlətə çevrilib və bu böyük şəxsiyyətlərin reallaşdırdıqları inkişaf konsepsiyası sayəsində əldə olunan uğurlar ölkəmizin nurlu sabahının təminatçısıdır. Bəli, bu gün Azərbaycan, sözün əsl mənasında, yüksək sürətlə böyük zirvələrə doğru irəliləyir, Azərbaycan öz qüdrətini daha da artırır. Heydər Əliyevin siyasi xəttinin davamçısı olan Prezident İlham Əliyev hazırda Azərbaycanı müvəffəqiyyətlə siyasi və iqtisadi modernləşməyə doğru aparır. İqtisadiyyatın liberallaşdırılması, ölkənin geosiyasi və geoiqtisadi çəkisinin artması, vətəndaş ilə dövlət arasında vahid birliyin, ahəngdarlığın bərqərar olması Azərbaycanı yüksələn xətlə inkişafa aparır. Prezident İlham Əliyevin apardığı siyasət nəticəsində, Azərbaycan iqtisadi inkişaf sürətinə görə dünyanın aparıcı dövlətləri sırasında yer alıb. Cənab İlham Əliyev böyük əzmkarlıq və mətanət göstərməklə Azərbaycanımızı qət olunması çətin sayılan zirvələrə ucaldır, dövlətçiliyimizi və tarixi müstəqilliyimizi daha da möhkəmləndirir.

“Əmin ola bilərsiniz ki, mən Heydər Əliyevin başladığı bütün işləri axıra çatdıracağam” - söyləyən Prezident İlham Əliyev Ulu Öndərimiz tərəfindən müəyyən edilmiş dövlətçilik kursunu davam etdirməklə, Azərbaycanımızı indiki firavan günlərə çatdırmış, gələcəyə və sabaha möhkəm təminat yaradıb.

Fikirlərimi hörmətli akademikimiz Ramiz Mehdiyevin fikirləri ilə başa çatdırmaq istərdim: “Heydər Əliyevə siyasət səhnəsində heç kim qalib gələ bilməmişdir. O, dövlətçilik tarixində “qalib lider” obrazını yaratdı. Azərbaycan tarixində böyük uğurları ilə yanaşı, həm də ən müxtəlif səbəblərdən məğlubiyyət anı yaşayan liderlər çox olmuşdur. Heydər Əliyev isə Azərbaycan xalqına qalibiyyətin canlı obrazını, lider örnəyini bəxş etdi. Bu, tariximizdə həmişəlik qürur ünvanı kimi qalacaq və Onun siyasətinə də alternativ yoxdur”.

***Mehriban Abasquliyeva,***
***YAP Sabunçu rayon təşkilatının sədri***

## Heydər Əliyev Sarayında Aşıq Şəmşirin anadan olmasının 125 illiyi qeyd ediləcək




Dekabrın 17-də Heydər Əliyev Sarayında Azərbaycan aşıq sənətinin görkəmli nümayəndəsi, Əməkdar incəsənət xadimi Aşıq Şəmşirin 125 illik yubileyi qeyd ediləcək. Saraydan AZƏRTAC-a bildirilib ki, yubiley gecəsində aşıq poeziyasının ən tanınmış və məşhur simaları iştirak edəcəklər. Aşıqların ifasında ustad sənətkarın əsərləri səsləndiriləcək. Qeyd edək ki, ustad sənətkar bənzərsiz ifası, şirin avazı, özünəməxsus çalğısı və qələmə aldığı gözəl sənət nümunələri ilə Azərbaycan aşıq yaradıcılığında mühüm yer tutub və aşıq sənəti ənənələrinin davam etdirilməsi və zənginləşdirilməsinə böyük əmək sərf edib.

## “Azərbaycanın hərbi potensialının artması Ermənistanın hərbi-siyasi rejimini təşvişə salıb”



Son zamanlar Ermənistanda antirusiya ab-havasının yenidən hökm sürdüyü bir vaxtda Azərbaycanın müasir silah və hərbi texnika almaqla hərbi potensialını davamlı şəkildə artırması, həmçinin ən yeni texnologiyaların tətbiqi ilə keçirdiyi hərbi təlimlərdə ordusunun döyüş qabiliyyətini yüksəltməsi bir çox dost ölkələri sevindirsə də, Ermənistanın hərbi-siyasi rejiminin əməlli-başlı təşvişə düşməsinə və narahatlığının daha da artmasına səbəb olub. Bunu ehtiyatda olan general-leytenant Yaşar Aydəmirov yeni yaradılmış “Lazarev klubu”nun Rusiyanın və Ermənistanın siyasi dairələrinin nümayəndələrinin iştirakı ilə İrəvanda keçirilən ilk iclasındakı çıxışlar zamanı səsləndirilən fikirləri AZƏRTAC-a şərh edərkən bildirib. “İclasda diqqəti cəlb edən çıxışlardan biri də MDB ölkələri institutunun direktor müavini Vladimir Yevseyevin çıxışı olub. O, Azərbaycanın hərbi gücünün istər kəmiyyət, istərsə də keyfiyyət baxımından Ermənistandan daha üstün olduğunu qeyd edib. V.Yevseyev məhz Rusiyanın Ermənistana verdiyi “İsgəndər” əməliyyat-taktiki raket komplekslərinin bu ölkəni Azərbaycanın təhdidlərindən qoruduğunu xüsusilə diqqətə çatdırıb.

Ehtiyatda olan podpolkovnik V.Yevseyev bilməlidir ki, Rusiyanın Ermənistanda yerləşdirdiyi “İsgəndər” əməliyyat-taktiki raket kompleksləri istər dəqiqlik, istərsə də dağıdıcı qüvvə baxımından Azərbaycanın Belarusdan aldığı “Polonez” yaylım atəşli reaktiv sistemlərinə bütün parametrlərdə uduzur. Bütövlükdə isə “İsgəndər” əməliyyat-taktiki raket kompleksləri köhnə olmaqla yanaşı, həm də onun hədəfin vurulmasında yüksək dəqiqlik nümayiş etdirə bilməyəcəyi ehtimalları bu silahın müasir döyüş əməliyyatlarında tətbiqini bu günədək əngəlləyir. Təbii ki, külüng və beldən başqa bir şey görməyən keçmiş hərbçi Yevseyev bunu bilməz. Əgər Ermənistan rəhbərliyi unudubsa, onlara xatırlatmaq istərdim ki, “Polonez” və “Lora”lar Azərbaycan Ordusunun üstünlüyünü təsdiq etməklə düşmən ölkənin ərazisində olan bütün hərbi və strateji obyektləri məhv etməyə qadirdir”, - deyə Y.Aydəmirov bildirib.

## Bakıda isveçli rəssamın əsərləri sərgilənəcək




Dekabrın 6-da İçərişəhərdə yerləşən “Art Tover” rəsm qalereyasında isveçli rəssam Simon Arnsın fərdi sərgisi açılacaq. AZƏRTAC xəbər verir ki, sərgi İsveçin Azərbaycandakı səfirliyinin dəstəyi, “Arts Council Azerbaijan” qeyri-hökumət təşkilatının təşkilatçılığı ilə reallaşacaq. Sərgidə rəssamın 40-dək sənət əsəri nümayiş olunacaq. Dekabrın 8-dək ziyarətçilər üçün açıq qalacaq sərgi ilə hər kəsin tanış olmaq imkanı var.

## Ermənistanda deputat 14 milyonluq rüşvətə görə həbs olunacaq



Ermənistanın Baş prokurorluğu ölkə parlamentinə Respublika partiyasından olan deputat Aram Arutunyana bağlı müraciət ünvanlayıb. SİA armenianreport-a istinadən xəbər verir ki, müraciətdə onun deputat toxunulmazlığının aradan qaldırılması və həbs olunmasına şəraitin yaradılmasıdır. Erməni saytı ölkə prokurorluğunun saytına istinadən onu da yazır ki, Aram Arutunyan xüsusilə 14 milyon dollar daxil olmaqla, külli miqdarda rüşvət almaqda ittiham edilir. Bildirilir ki, o, bu rüşvəti 2008-ci ildə - Ermənistanın təbii sərvətlər naziri olarkən alıb. Xatırladaq ki, Aram Arutunyan şəhər tikintisi naziri vəzifəsində də çalışıb, eyni zamanda, həm Robert Koçaryana, həm də Serj Sarkisyana yaxınlığı ilə seçilənlərdən olub. Qeyd edək ki, Aram Arutunyan Qarabağ doğumlu ermənidir.

***Rövşən***

## Türkmənistan Azərbaycanda ticarət evi açmaq niyyətindədir



Türkmənistan Azərbaycanda ticarət evi açmaq niyyətindədir. Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, açılması planlaşdırılan ticarət evində Türkmənistan istehsalı olan müxtəlif çeşidli tekstil məhsullarının, əllə toxunan xalçaların satışı nəzərdə tutulub.






# Məhəmməd Mirzəli Tural Sadıqlının "nöqtəsini qoydu"

*Məhəmməd Mirzəli Tural Sadıqlının "nöqtəsini qoyduCanlı yayımda əqidədaşının üzünə tüpürən bloger onu satqınçılıqda, yalançılıqda, saxtakarlıqda ittiham edib*

***Müxtəlif bəhanələrlə ölkəmizi tərk edib Avropaya sığınan, oradan özlərini Azərbaycan cəmiyyətinə "müxalifətçi", "siyasi mühacir" kimi sırımaq istəyən Tural Sadıqlı ilə Məhəmməd Mirzəli arasında bir neçə gündür davam edən pul davası daha da böyüyüb. Qarşılıqlı ittihamlarla müşayiət olunan bu qalmaqalda hər iki tərəf özünü sudan quru çıxarmağa çalışır. Sosial şəbəkədə bu məqsədlə paylaşılan son videoda T.Sadıqlı yenidən M.Mirzəlini naxələf, satqın, dönük və arxadan bıçaq vuran kimi qələmə verib. Əqidədaşının iç üzünü açacağını vəd edən T.Sadıqlı M.Mirzəlinin onun barəsində iftiralar, böhtanlar səsləndirdiyini dilə gətirib. O, vaxtilə M.Mirzəlinin heç kim tərəfindən tanınmadığını xatırladıb. Deyib ki, illərdir video blogerliklə məşğul olan birisi kimi M.Mirzəlinin çıxışlarında cəsarət görüb və onu öz yanına çəkib, dəstək olub, çıxışlarını ictimailəşdirib, gənc bloger kimi populyarlaşmasına çalışıb. Turalın sözlərinə görə, o, bu dəstəyi edərkən, yaxın ətrafındakı insanlar onu qınayıblar ki, M.Mirəzlinin savadı, bir qəpiklik dəyəri yoxdur, ağzının danışığını bilmir, söyüş söyür və sair.***

Bütün bunlara əhəmiyyət verməyərək M.Mirəzliyə dəstək verdiyini, ondakı "cəsarəti" dəyərləndirdiyini vurğulayan Tural bildirib ki, "dostu" bunun müqabilində ona naxələflik edib, yalan danışaraq guya pul-qrant yediyini dilə gətirib. İndiyə qədər heç kimdən pul almadığını iddia edən T.Sadıqlı öz "Facebook" səhifəsində paylaşdığı bu video müraciət vasitəsilə kimin kim olduğunu üzə çıxarmağa cəhd etdiyini diqqətə çatdırıb. Qeyd edib ki, M.Mirzəli nələrinsə müqabilində fəaliyyət göstərir, bir balaca büdrəyən kimi də nələrinsə qarşılığında aciz qalır, sınır və sifarişlə "Azad Söz"ün "Youtube" kanalını şikayət edib bağlatdırır. Onun sözlərinə görə, bununla da kifayətlənməyən M.Mirzəli hətta böhtanlara əl atır, "mübarizə"yə "pul söhbətləri" əlavə etməklə ümumi işə ləkə yaxır: "Mən təhqir etmədim, bundan sonra da etməyəcəm. Bu, bizim vəzifəmiz deyil. Baxmayaraq ki, son danışığında təhqirdən başqa heç nə etmədi. Və bir də bütün suları duruldan bu sözləri məsələyə əsl nöqtəni qoydu. Allah heç kimin başına onun kimi çıxılmaz vəziyyətdə qalıb, sonra da sınmaq, hələ üstəgəl də başqalarına şər atmaq, mübarizəyə xələl gətirən pul söhbətləri edib televiziyalara bəzək olmağı gətirməsin! Məncə, bundan sonra heç bir çıxış etmə! Çünki hər dəfə danışdıqca, özünü daha da ifşa edirsən!"

T.Sadıqlı canlı yayımda M.Mirzəlinin videogörüntüsünü də göstərib və deyib ki, həyat yoldaşı da ona şərəfsiz deyir: "Mən sadəcə olaraq sizə bir videonu göstərəcəyəm və özünüz hər şeyi başa düşəcəksiniz. Məhəmməd canlı yayımda deyir: şərəfsiz sözü söyüş deyil, evdə həyat yoldaşım da mənə şərəfsiz deyir".

Söz altında qalmayan M.Mirzəli də qarşılıqlı olaraq "Facebook" səhifəsində, "Youtube"də video müraciətlə çıxış edib, T.Sadıqlının ünvanına ittihamlar səsləndirib.



Öncə o, əqidədaşının ünvanına söylədiyi fikirlərin absurd olduğunu vurğulayıb. Təxminən yarım saatlıq videomüraciətdə səsləndirilən həmin fikirləri ixtisarla təqdim edirik: ""Azad söz"də birgə iş müqabilində əldə edilən gəlirlər Tural tərəfindən mənimsənilib. Nəyə görə Məhəmməd Mirzəlinin adı beynəlxalq təşkilatlarda qrant yeyən, yalan danışan, insanları aldadan adam kimi keçməlidir? Ələvsətin oğlu Tural! Mənə çatacaq pulu özümə ver. Vaxtilə Tural demişdi ki, gördüyümüz işlərdən 10-20 min avro arası mənə pul çatacaq. Ancaq o pulu vermədi. İndi də həmin pulu mənim bank hesabıma göndərmir. Turalın atası Ələvsət Azərbaycanda qrant alan, qrant yeyən QHT-şnik kimi tanınır. Aldığı pullar hesabına da Turalı böyüdüb. Amma mənim atam qaynaqçıdır və alnının təri ilə, zəhmətlə qazandığı pulları hesabına məni böyüdüb".

M.Mirzəli bildirib ki, T.Sadıqlı mühacirət etmək istəyən azərbaycanlıları aldadır, onların pulunu mənimsəyir və başlarına oyun açır: "Mühacirət edən azərbaycanlılara saxta arayışlar düzəldib satan da, mənim adıma göndərilən pulları mənimsəyən də Tural Sadıqlıdır. Azərbaycanda korrupsiya var deyən Ələvsətin oğlu Turalın özü və atası ən böyük korrupsionerlərdir. Fatimə Mövlanlı adlı jurnalistin pulunu yeyib onu şantaj edən də Tural Sadıqlıdır. Bununla bağlı söz-söhbət yaranandan sonra Turalın atası Ələvsət aparıb Fatiməyə pul verib ki, söhbət daha da böyüməsin. Vaxtilə Siracla Fərəc qardaşlarından polisə şikayət edən, çıxdığı yola, dostlarına, əqidədaşlarına xəyanət edən kəsdir Tural Sadıqlı. Mənim üzərimdən pullar qazanıb, reytinq əldə edib Tural. Haqqımı halal etmirəm, haramı olsun! Saxta sənəd satan, qaçaqmalçılıq edən, insanları aldadan Avropanın, o cümlədən Almaniyanın küçələrinə tökən yenə də Ələvsətin oğlu Turaldır. Ailəsini dağıdan, qadınına sahib olmayan, onu qapıdan qovan birisidir Tural. Bu video ilə Turalın nöqtəsini qoyuram, onu ifşa edirəm mən. Almaniyada təşkilat yaradan və guya ətrafına 200-300 nəfər toplayan Turalın indi yanında bir nəfər də yoxdur. Maraqlıdır niyə? Çünki, Tural çamurun içində olduğu üçün ətrafındakı təmiz insanların paxıllığını çəkir, onlara çamur atır, ləkələyir. Belə xarakterə sahibdir. Təsəvvür edin, Tural mənim barəmdə yazı yazır, onun dədəsi Ələvsət də girib həmin yazının altında söyüş söyür. Ağsaqqal kişidir, utanmır. Tural Sadıqlı əgər qrant almırsa Berlindəki ofisi hansı pulla saxlayır? Yardım kimi ayda ona verilən 450 avro ilə ofis saxlamaq olar? Son olaraq demək istəyirəm ki, tüpürüm sənin vicdanına".



Beləcə hər iki tərəf öz səviyyəsinə uyğun şəkildə bir-birini ittiham edib, sandığı açıb bütün gizlinləri gün işığına çıxarıblar. Bu statuslar, videogörüntülər altında şərh yazan sosial media istifadəçiləri isə "iaşə müxalifətinin" son hərəkətləri ilə öz mahiyyətlərini ortaya qoyduqlarını qeyd ediblər.

# Nikol Paşinyan Qarabağ separatçılarına hədə-qorxu gəlir

*Ermənistanda 9 dekabr tarixində keçiriləcək növbədənkənar parlament seçkilərilə əlaqədar baş nazir səlahiyyətlərini icra edən Nikol Paşinyanın təşviqat kampaniyaları zamanı Dağlıq Qarabağ münaqişəsilə bağlı çıxışlarının Qarabağdakı separatçı rejimin tənqid hədəfi olması qarşı tərəfi də bərk qıcıqlandırıb. Qondarma qurumun Ermənistanın daxili işlərinə, o cümlədən də, seçki prosesinə müdaxiləsini qınayan Paşinyanı, onun həyəcanını başa düşmək çətin deyil və ümid edirik ki, başqalarının daxili işlərinə qarışmağın, müdaxilənin nə demək olduğunu, gec də olsa, dərk edə bilər.*

Bu vaxta qədər Dağlıq Qarabağla əlaqədar bütün məsələlərin müzakirəsi zamanı hansı daşı qaldırsan altından çıxan Ermənistan, qondarma rejimə himayədarlıq etdiyi halda, həmin rejimin bu işğalçı ölkənin məsələləri ilə bağlı fikirləri və müzakirələri Paşinyanı əməlli-başlı özündən çıxarıb. Baş nazirin səlahiyyətlərini icra edən, lakin hələ də özünü küçə nümayişçisi kimi aparan inqilabçı Qarabağdakı separatçı rejimin fikirlərini təmsil etdiyi ölkənin daxili işlərinə qarışmaq, o cümlədən də, seçki prosesinə onların müdaxiləsi kimi qiymətləndirir.

Paşinyanın aqressiyası erməni KİV-lərində də öz əksini tapır və "Hakimiyyətə gəldi və indi Qarabağı satır" tipli ittihamlara qeyri-diplomatik kobud reaksiyası gizlədilmir. Qeqarkunik əyalətinin seçicilərilə görüşən Paşinyanın separatçıların onun haqqında ittihamlar səsləndirməsinə siyasətçi deyil, bir nümayişçi kimi aqressiv reaksiya verməsi belə normal təzahür kimi qarşılanıb və bu da, təbiidir. Əvvəla, ona görə ki, heç bir idarəçilik təcrübəsi, siyasi karyerası, diplomatiyadan zərrə qədər anlayışı olmayan bir marionetdən, Qərb siyasətinin oyuncağından bundan artıq gözlənti Ermənistanın özündə, onun kütləvi informasiya vasitələrində belə yoxdur. Digər tərəfdən, bütün mövcud potensialını, kimliyini Qərb oyununun kartına sərf edən bu manipulyatorun onun özünə də, ölkəsinə də aidiyyəti olmayan Qarabağdan zərbə almaq təhlükəsindən qorxu-



ya düşməsi də başadüşüləndir.

### Ermənistan hakimiyyəti qondarma rejimin seçkilər üzrə təşviqat kampaniyalarına müdaxiləsini və mövcudluqlarını nümayiş etdirmək cəhdlərini təşvişlə qarşılayır

Qeqarkunik əyalətində seçicilərilə görüşü zamanı, sosial şəbəkələrdəki materiallarda, hətta qondarma rejim "rəsmilərinin" ucuz spekulyasiyalarından dəhşətə gəldiyini bildirən nümayişçi lider, hətta son günlər Dağlıq Qarabağ "hakimiyyəti" nümayəndələrinin aktivliyini anlaya bilmədiyini də söyləməkdən çəkinməyib. Onların niyə fəallaşdığını, Ermənistanda keçiriləcək parlament seçkiləri üzrə təşviqat kampaniyalarına hansısa yolla müdaxilə etməyə və öz mövcudluqlarını nümayiş etdirməyə niyə çalışdıqlarını təşvişlə qarşılayıb. Hətta Dağlıq Qarabağın qondarma "prezidenti" Bako Saakyanla gözlənilən görüşü zamanı bütün bunları mütləq müzakirə edəcəyini də söyləməklə həyəcanını və narahatlığını gizlədə bilməyib.

Bu arada Paşinyanın qondarma rejim rəhbərinə tövsiyələr verməklə, həmin rejimi intizama dəvət etməsi də, bir çox məqamlara aydınlıq gətirir. Deməli, baş naziri səlahiyyətlərini icra edən bu avantürist qondarma rejimin intizamsızlığını ya rəsmi şəkildə etiraf edir, ya da bu rejimin fəaliyyətini intizamsızlıq kimi qiymətləndirir. Əvvəlcə, "özünüzə gəlin və öz işinizlə məşğul olun", sonra isə, "seçkilərdən sonra bütün bunları sizinlə müzakirə edəcəm" deyən Paşinyan Qarabağ separatçılarına xəbərdarlıq etməklə, yenə də öz hədə-qorxu taktikasına əl atır. Bütün bu faktlar küçə nümayişçisinin kürkünə birə düşməsindən xəbər verir və təsdiq edir ki, Paşinyan seçki öncəsi Qarabağ rejiminin törədə biləcəyi "fors majordan" ehtiyat edir. Daha dəqiq desək, qorxur.

### Seçkiqabağı bir avantürist üçün populist çıxışlar zərrə qədər əhəmiyyət daşımır və onun daha çox qorxduğu hakimiyyəti itirməkdir

Maraqlıdır, Paşinyan Qarabağın müstəqil olduğunu və İrəvanın onunla bağlı heç bir "hüquqa" malik olmadığını dediyi halda indi bu qondarma rejimi intizama dəvət etmək adı ilə onların Ermənistan hakimiyyətinə tabe olduqlarını xatırladır. Bu oyunlara onu vadar edən nədir? Erməni xisləti, yoxsa hakimiyyət hərisliyi? Təbii ki, hər ikisi. Çünki Paşinyan bu erməni xislətini hamıdan yaxşı özü bilir və qorxur ki, Bako Saakyan kimi birisi istənilən anda simasızlığını yenə də ortaya qoyub, onun özünə də badalaq gələ bilər. Özü də seçkiqabağı bu hərəkətin nə ilə nəticələnəcəyinin fərqində olan avantürist üçün populist çıxışları zərrə qədər əhəmiyyət daşımır və onun daha çox qorxduğu qazanmaq arzusunda olduğu hakimiyyəti itirməkdir.

Qarabağ separatçılarına qarşı hədələyici çıxışlar edən küçə nümayişçisi Respublikaçılar Partiyası və onun rəhbəri - Qarabağ klanının üzvü Serj Sarkisyanın münaqişə kartından seçkilərdə ona qarşı istifadə edə biləcəyindən qorxduğu gün kimi aydındır. Qarabağ rəhbərliyini hələ də tam öz tərəfinə çəkə bilməyən Paşinyan bu cür hədələrə əl ataraq, başına gələ biləcək mümkün təxribatlardan sığortalanmağa cəhd edir. Təbii ki, bu işdə yeganə silahı da hədə-qorxudur və görünür, bu da elə erməni xislətini yaxşı bilməsindən irəli gəlir. Çünki bilir ki, onlara etibar ediləcək, güvəniləcək deyil və yeganə təsir variantı hədə-qorxu taktikasıdır.

**İnam HACIYEV**

## Kimdir düşmənimiz: həmsədrlər, yoxsa ermənilər?



MƏTLƏB
Metlebsalahov@mail.ru

***Yazı başlığımın cavabı qətiyyən birmənalı deyil, burası yüzdə-yüz dəqiqidir. Xüsusilə, müasir dünya siyasətinin iyrənc ikiüzlü diplomatiya maskasının yırtılıb cırıldığı zamanda kimin dost, kimin düşmən olduğu ağlı başında olan hər kəsə aydındır. Aydın olmayan isə, bizim kimi siyasi sadəlövhlərin, əsrlər keçsə də, heç zaman dəyişməyən beyin hüceyrələrimizdə, Novruzəlinin "Poçt qutusu"ndakı kor inadkarlığı kimi, bizim də Qərb diplomatlarına inanmağımız, haçansa bunların qatı xrisitan damarlarının günlərin bir günü yumşalıb bizlərə də "gün ağlayacağı" barədə Novruzəlidən qalma düşüncə qlobusumuzda heç vaxt real olmayan nağıllar uydurmağımızdır.***

1992-ci ilin yayında Helsinkidə qurulan ATƏT-in Minsk Qrupuna imza atmaqla, əslində, Qarabağı çar Nikolaydan və Ruzveltdən üzü bəri ermənilərin mənəvi lobbisi olan Qərb və rus diplomatiyasına öz qırılmış əllərimizlə hədiyyə etdik. Bəli, açıq-aşkar hədiyyə etdik!

O zaman bəzi siyasətçilərimiz bunu elə sevinclə qeyd edirdilər ki, guya münaqişəni beynəlxalq diplomatiya müstəvisinə keçirmişik. Bədbəxt təfəkkür! Qarabağı aparıb verdik xaçlı pələnglərə ki, buyurun, necə istəyirsiniz, eləcə də bölüşdürün. Bununla da, qızı ata evindən qaçırdan kimi, guya Qarabağ münaqişəsini də Moskvadan "qaçırdıb" dünya birliyinə həvalə etdik ki, daha səsimizi boğa bilməsinlər. Sanki Nyu-Yorkda, Brüsseldə, Parisdə, Berlində oturanlar insaf, ədalət tərəzisində Moskvadan "bir çömçə" yuxarıda idilər və ümidimiz onlara idi.

Mənzərəyə bax: Novruzəlinin təfəkkürü 21-ci əsrdə də davam edir. Yenə özümüz-özümüzü sadəlövhcəsinə aldadırıq, cənablar, bəylər, qardaşlar, yoldaşlar! Şair bu yerdə lap əla deyib: "Kimi aldadırsan a zalım oğlu?"

Tarixin bir çox dönəmində Qərb və rus diplomatiyası bir-birinə əl verməyi əla bacarıb. Əlbəttə, öz marağları naminə. Bizim kimi Novruzəlilər isə, onlar üçün bütün zamanlarda əla yem olub. Yenə də onlara yem olduq. Bu dəfə ATƏT kimi açıq-aydın bizi öz siyasi caynağında saxlamaq üçün qurulan diplomatik həbsxana formasında. Erməni faşistlərinin Xankəndində "iş başına" qoyduqları Bako Saakyan kimi müharibə canisini və qatı terrorçunu ATƏT-in Minsk Qrupuna üzv olan ölkələrdə bağırlarına basıb qardaş kimi yuxarı başa keirdilər.Vasitəçilik, tərəfsizlik kimi boşboğaz terminlər də getdi işinin dalınca. Vəssalam!

Neçə əsrlərdir ki, başımıza min bir müsibət gətirilsə də, çiyinlərimizin üstündə gəzdirdiyimiz başımızın içindəki beyin hüceyrələrimizdə hələ heç nəyi dəyişmirik ki, dəyişmirik.

Yenə Novruzəli babadan qalma düşüncəmiz, yadlara qardaş olub, özümüzə qənim kəsilmək adətimiz, onabuna qucaq açıb özümüzün kölgəmizi belə baltalamağımız, istehzalı da olsa, min şükür, yerindədir. Tariximizi unutsaq da, əməllərimizi neçə əsrdir ki, özümüzlə daşıyırıq...

Sadəlövhlüyümüz, unutqanlığımız, keçmişimiz də bizimlə iyirmi birinci əsrə qədər əməllicə yol qət eləyib. Düzdür, tarix boyu xalqımın qanını axıdan, günahsız azərbaycanlı körpələri diri-diri od vurub analarının gözü qarşısında yandıran, bütün əsrlərdə xalqıma amansız soyqırımlar yaşadan xalq ermənidir. Amma onun bu cinayətlərinə bütün əsrlərdə qərbsayağı iyrənc diplomatik "əzabkeş" donu geyindirib, ona züy tutan Qərb diplomatları ermənidən daha betər bir görkəmdə çıxıblar qabağımıza. 1918-ci ildə müstəqilliyimizi tanımaq məsələsində bir sıra beynəxalq konfranslardan başlayaraq, Qərb diplomatıyası öz ikiüzlü "demokratiya" maskası ilə "əzabkeş erməni" daşnaklarının himayəçisi olub. Hətta ermənilərin rusların bir nömrəli nökəri olması da onların erməni sevgisinə zəhər qatmayıb, soyutmayıb. Bax, yenə də elədir. Saakyanı doğma qardaş kimi, Parisdə, Moskvada, Vaşinqtonda bağırlarına basırlar. O zamanlar da belə idi, indi də elədir. Əziz qardaşlarım, artıq Novruzəli təfəkkürünə "stop" deyək. Düşmənimiz təkcə erməni deyil...

# "Paşinyanı ayın 9-da sürpriz gözləyir"

"Ermənistanda seçkiqabağı mübarizədə rəqiblər, tərəflər bir-birinə qarşı təxribat xarakterli bəyanatlar verirlər. Lakin mən David Şahnazaryanın Paşinyanın Qarabağı vermək üçün hakimiyyətə gəlməsi ilə bağlı fikirlərinə inanmıram. Mən Paşinyan belə bir fikirdə olduğunu düşünmürəm". Bu fikirləri SİA-ya açıqlamasında millət vəkili Elman Məmmədov deyib. O bildirib ki, Ermənistanda son baş verən hadisələr, səslənən bəyanatlar Paşinyana ona qarşı yaradılan piar kampaniyasının tərkib hissəsidir.



Paşinyanın rəqiblərini zərərsizləşdirmək üçün ən kəskin - həm ideoloji, həm də güc sahəsində bütün vasitələrdən istifadə etdiyini deyən deputat E.Məmmədov söyləyib ki, Ermənistanda hakimiyyət uğrunda gedən mübarizə övləmizin xeyrinə işləyən prosesdir: "Xüsusilə də Paşinyan və onun tərəfdarlarının Rusiya əleyhinə Rusiyadan uzaqlaşmaq istiqamətində verdikləri bəyanatlar, gördükləri işlər bizim xeyrimizə olan məqamlardır. Çünki bu dövləti tarixən Rusiya yaradıb, onun himayəsində olub, qonşu ölkə müdafiə edib, saxlayıb. Ermənistanın bugünkü mövcudluğunun səbəbkarı da Çar Rusiyası, SSRİ və indiki Rusiya Federasiyasıdır".

Deputatın fikrincə, bu gün Ermənistanda təmsil olunan siyasi rəhbərlər arasında normal ağıla sahib və Dağlıq Qarabağ probleminin həllinə ədalətli yanaşmağı bacaran siyasətçi yoxdur: "O siyasətçini formalaşdıran qüvvələr müxtəlifdir. Birinci növbədə bizim gücümüzün artmağı, cənab Prezidentin dediyi kimi uğurla apardığımız təcridetmə siyasəti, ordumuzun güclənməsi, beynəlxalq aləmdə nüfuzumuzun yüksəlməsi onların müəyyən istiqamətdə formalaşmasına səbəb olur. Digər tərəfdən onları himayə edən dövlətlərin onlara qarşı münasibəti və ədalətli mövqeyi bunları formalaşdıra bilər. Biz edirik, ancaq hələ ki, digər dövlətlərdən bunu görə bilmirik".

E. Məmmədov qeyd edib ki, bu yaxınlarda həmsədr dövlətlər də atdıqları addımlarla Azərbaycanın uzun illərdir söylədiyi fikri təsdiq etmiş oldular: " Həmsədrlər danışıqlarda bitərəf deyil, tərəf olduqlarını göstərdilər. Hər üç həmsədr dövlətin quldur, hərbi cani olan Bako Saakyanı öz ölkəsinə dəvət etməsi, onunla isti görüşlər keçirməsi, onu Baykala istirahətə göndərməsi və digər addımlar xəbər verir ki, bunlar Ermənistana tərəfdirlər". Deputat əlavə edib ki, ermənilərin bir-birinə qarşı tələ qurduqlarını nəzərə alsaq, Paşinyanı ayın 9-da hansı sürpriz gözlədiyini bilmək olmaz.

# 2018-ci ilin yanvar-oktyabr aylarında Bakı şəhərinin makroiqtisadi göstəriciləri

***Bakı Şəhər Statistika İdarəsinin rəisi Xosrov Əbdürəhmanovun "Səs" qəzetinə verdiyi məlumata əsasən, 2018-ci ilin yanvar-oktyabr aylarında sənayedə istehsal olunmuş malların və göstərilmiş xidmətlərin həcmi əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 0,2 faiz artaraq 35 milyard manat təşkil etmişdir. Sənaye məhsulunun 82,7 faizi mədənçıxarma, 15,4 faizi emal, 1,4 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,5 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunmuşdur. Sənayedə qeyri-dövlət sektorunun payı 84,9 faiz olmuşdur. İstehsalın ümumi həcmində sənaye məhsulunun payı 90,2 faiz, xidmətlərin göstərilməsi isə 9,8 faiz təşkil etmişdir.***



X.Əbdürəhmanovun sözlərinə görə, 2018-ci ilin yanvar-oktyabr aylarında Bakı şəhərində Yüksəkgərginlikli Avadanlıqlar Zavodu, 110/35/10 kilovoltluq "Yasamal-1" və "Qobu", 35/10-6 kilovoltluq 120 saylı elektrik yarımstansiyaları, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksi, Heydər Əliyev adına Müasir Təhsil Kompleksinin yeni binası, Bakı Şəhər Statistika İdarəsinin inzibati binası, Bona Dea Beynəlxalq Hospitalı, "Dinamo" oteli, Respublika Narkoloji Mərkəzi, Abşeron Logistika Mərkəzi, Bakı Kitab Mərkəzi, Bakı Olimpiya Stadionundan Heydər Əliyev prospektinə keçid və müxtəlif səviyyəli yol qovşağı istifadəyə verilmişdir: "2018-ci ilin yanvar-oktyabr aylarında şəhərin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 10013,2 milyon manat və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 14,3 faiz az vəsait yönəldilmişdir. Ümumi sərmayənin 57 faizi dövlət, 43 faizi qeyri-dövlət sektorunun sərmayədarlarının payına düşmüşdür. Əsas kapitala yönəldilmiş vəsaitlərin 67,1 faizi tikinti-quraşdırma işlərinə sərf edilmişdir".

X.Əbdürəhmanov 2018-ci ilin yanvar-oktyabr aylarında ticarət dövriyyəsinin həcmi 2017-ci ilin yanvar-oktyabr ayları ilə müqayisədə 3,2 faiz artaraq, 15966,3 milyon manat olmuşdur: "Ticarət şəbəkəsində satılmış ərzaq məhsulları, içkilər və tütün məmulatlarının dəyəri əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 3,3 faiz artaraq, 7237,5 milyon manata, qeyri-ərzaq məhsullarının həcmi isə 3 faiz artaraq, 8728,8 milyon manata bərabər olmuşdur. İstehlak məhsullarının 24,2 faizi hüquqi şəxs statuslu müəssisələrdə, 62,4 faizi fərdi sahibkarlara məxsus ticarət obyektlərində, 13,4 faizi isə paytaxtın məhsul bazarlarında satılmışdır. Hesabat dövründə elektron qaydada pərakəndə ticarət şəbəkəsində 30,4 milyon manatlıq və ya 2017-ci ilin eyni dövrünə nisbətən müqayisəli qiymətlərlə 17,4 faiz az istehlak məhsulları satılmışdır. Satışın bu növü vasitəsilə qeyri-ərzaq məhsulları realizə olunmuşdur. 2018-ci ilin yanvar-oktyabr aylarında ictimai iaşə dövriyyəsi əvvəlki ilin müfaviq dövrü ilə müqayisədə real ifadədə 6,7 faiz artaraq, 792,4 milyon manat olmuşdur. Dövriyyənin 47,5 faizi hüquqi şəxs statuslu müəssisələrin, 52,5 faizi isə bu sahədə sahibkarlıq fəaliyyəti ilə məşğul olan fərdi sahibkarların payına düşmüşdür. Hesabat dövründə hüquqi şəxs statuslu müəssisələrdə dövriyyə 2017-ci ilin yanvar-oktyabr aylarına nisbətən 12,2 faiz artaraq, 376,2 milyon manat təşkil etmişdir".

X.Əbdürəhmanov qeyd etdi ki, ən yüksək orta aylıq əmək haqqı sənaye, maliyyə və sığorta fəaliyyəti, peşə, elmi və texniki fəaliyyət, informasiya və rabitə, tikinti fəaliyyəti göstərən müəssisə və təşkilatlarda çalışan işçilərdə, ən aşağı əmək haqqı isə səhiyyə və sosial xidmətlər, kənd təsərrüfatı, daşınmaz əmlakla əlaqədar əməliyyatlar, təhsil, istirahət, əyləncə və incəsənət sahələrində fəaliyyət göstərən müəssisə və təşkilatlarda çalışan işçilərdə olmuşdur.

***Qismət İsmayılov***

# "Nar Wi-Fi" ilə 4G artıq evinizdə

***Ölkənin ən gənc və innovativ mobil operatoru "Nar" yüksək sürətli internetə çıxış imkanı verən "Nar Wi-Fi" internet paylayıcısını təqdim edir. Bu avadanlıq sayəsində 30-dan artıq cihaz eyni anda istənilən məkanda sərfəli qiymətə yüksək sürətli internetə (LTE / 4G) çıxış əldə edəcək.***




Yeni mənzilə və ya ofisə köçənlər, yaxud evində ənənəvi internetə qoşula bilməyənlər üçün "Nar Wi-Fi" ruterini özünüzlə götürmək yetərlidir ki, qısa müddətdə 4G interneti evinizdə olsun. Avadanlıq "Nar" 4G-LTE şəbəkəsinin əhatə etdiyi hər yerdə internetə çıxış əldə etmək imkanı verir. "Nar Wi-Fi" ev, bağ, ofis və biznes məkanlarını fiber optik kimi 20 Mbps sürətli internetlə təmin edən naqilsiz texnologiyadır.

Avadanlığı abunəçinin özü rahat şəkildə quraşdıra bilər. Abunəçilər avans ödəniş etməklə həm qurğunu əldə edəcək, həm də 6 aya qədər internetə çıxış imkanı qazanacaqlar. Müvafiq tarifli SIM kartı rutera daxil etdikdən və enerji mənbəyinə qoşduqdan sonra qurğu avtomatik olaraq işə düşəcək. Azərbaycada kiçik və orta biznesin inkişafı üçün yüksək sürətli internetə çıxış imkanı verən "Nar Wi-Fi"-ın müştərinin növünə (pərakəndə və ya biznes) görə fərqli, sərfəli qiymətləri, sürət və internet həcminə görə isə müxtəlif paket variantları var. Qeyd edək ki, "Nar Wi-Fi" ilə internet ADSL ilə müqayisədə daha sürətlidir və abunəçilərə 60 GB-a qədər limitsiz internet paketləri təqdim edilir. "Nar Wi-Fi" və cihazın satış məntəqələri haqqında daha ətraflı məlumatı nar.az saytından öyrənmək olar.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 7300-dən artıq baza stansiyası ilə 2,2 milyona yaxın abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir. 2017-ci ildə keçirilmiş mobil rabitə şəbəkələrinin müqayisəli testlərinə əsasən "Nar" şəbəkəsi mobil zəng xidmətlərinin göstərilməsi üzrə ölkədə ən yüksək nəticəyə nail olub. Sınaqları test xidmətləri üzrə müstəqil beynəlxalq şirkət olan "P3 Communications" keçirib və sınaq metodologiyası əhatəli xidmətlər üzrə müştəri təcrübəsinə əsaslanıb.

# Məşhur türk sənətçisi Bakı Slavyan Universitetində olub



***Dünən Bakı Slavyan Universitetində qardaş Türkiyə Cümhuriyyətinin sevilən sənətçisi Müşərrəf Akayla universitetin rəhbər heyətinin, müəllim və tələbələrinin və qonaqların iştirakı ilə görüş keçirilib. Müşərrəf Akay BSU-nun girişində tələbələrin təqdimatında Azərbaycan-Türkiyə qardaşlığını təcəssüm etdirən milli mahnılar və rəqslərlə qarşılanıb. Foyedəki kiçik konsert proqramından sonra tədbir universitetin akt zalında davam etdirilib. Tədbirdə əvvəlcə Azərbaycan və Türkiyənin Dövlət himni səsləndirilib.***

Tədbiri giriş sözüy ilə açan BSU-nun rektoru, professor Nurlana Əliyeva universitetin yaranma tarixindən, burada türk dili və mədəniyyətinə, ədəbiyyat və musiqisinə olan böyük diqqətdən danışıb. BSU-nun yarandığı gündən dünyanın bir çox ali təhsil ocaqları ilə beynəlxalq əməkdaşlıq qurduğunu dilə gətirən N.Əliyeva qardaş Türkiyə ilə əməkdaşlığın daha dərin köklərə malik olduğunu bildirib. N.Əliyeva BSU-dakı Türkiyə Araşdırmaları Mərkəzinin fəaliyyətindən danışıb, o, Bakı Slavyan Universitetinin Türkiyənin Qafqaz Universiteti, Qazi Universiteti, Ankara Universiteti, İstanbul Kültür Universiteti və başqaları ilə əməkdaşlıq haqqında müqavilələr bağladığını, eyni zamanda, beynəlxalq münasibətlər və regionşünaslıq fakültəsində türkiyəşünaslıq üzrə təhsil alan tələbələrə Türkiyənin iqtisadi-siyasi və mədəni cəhətdən inkişafını əks etdirən kursların tədris olunduğunu vurğulayıb. N.Əliyeva qonağa bu günlərdə BSU ilə Türkiyə Cümhuriyyətinin Reytinq Akademiyasının birgə təşkilatçılığı ilə keçirilən "Kultulroloji paradiqmalar və yeniləşən Azərbaycan" adlı tədbir barədə məlumat verib.

ATV-nin nəzdində Teleradio Akademiyasının rəhbəri, BSU-nun Jurnalistika kafedrasının müəllimi, professor Etibar Babayev çıxışında türk sənət ustası barədə öz müsbət fikirlərini səsləndirib. E.Babayev Müşərrəf Akayın Azərbaycan-Türkiyə arasında mədəni əlaqələrin möhkəmlənməsində mühüm xidmətləri olduğunu diqqətə çatdırıb, onun Azərbaycan incəsənətinə, milli ruhuna bağlılığını xüsusi qeyd edib.

Sonra tanınmış sənətçinin Azərbaycanla bağlı xatirələrini əks etdirən video-çarxın nümayişi olub.

Nümayişin ardınca "Azərbaycanım" beynəlxalq jurnalının təsisçisi Emil Nəsirli Müşərrəf Akaya jurnalın "Fəxri üzvü" olması münasibətilə diplom və qızıl medal təqdim edib. Çıxış edən Azərbaycanın əməkdar incəsənət xadimi, modelyer Fəxriyyə Xələfova yüksək səviyyəli tədbirin təşkilinə görə, BSU rəhbərliyinə minnətdarlığını bildirib.

Azərbaycan haqqında təəssüratlarının olduqca xoş olduğunu deyən Müşərrəf Akay bu günlərdə Gəncədə olduğunu, orada çox səmimi qarşılandığını vurğulayıb. Sənətçi Azərbaycana əvvəlki illərdəki səfərləri ilə bağlı xatirələrini universitet əməkdaşları və tələbələrlə bölüşüb. Öncəki illərdə Bakıya gəlişini yada salan müğənni Azərbaycanın, Bakının inanılmaz şəkildə dəyişdiyini, inkişaf etdiyini, BSU-da artıq ikinci dəfə qonaq olduğunu söyləyib. Universitet kollektivinin diqqət və marağı da sənətçini təsirləndirib:"Azərbaycan xalqının mənə olan münasibəti, diqqəti məni çox təsirləndirdi, gözlərim yaşardı. Eyni hörmət və qayğını Bakı Slavyan Universitetində də görmək mənim üçün olduqca sevindirici haldır".

Səmimi görüşdən razı qalan qonaq tələbələrin suallarını cavablandırıb, sonda BSU əməkdaşları ilə xatirə şəkilləri çəkdirib.

***ZÜMRÜD***

# "Azərbaycanda sosial müdafiə sisteminin inkişafı: dünən, bu gün, sabah"

***Sosial müdafiə sistemi səmərəli əmək bazarlarının təşviqi, vətəndaşların məruz qaldığı risklərin yüngülləşdirilməsi, əməkhaqqı itkisinə qarşı müdafiə qabiliyyətinin gücləndirilməsi vasitəsilə yoxsulluğu və əhalinin iqtisadi həssaslığını azaltmağa istiqamətlənmiş proqramlardan ibarətdir.***

Hazırda dünyanın bir çox ölkələrində əksər qlobal məsələlərdə, o cümlədən sosial müdafiə sistemlərinin formalaşması proseslərində ciddi keyfiyyət dəyişikliklərinin baş verdiyini müşahidə edirik. İctimai inkişafın bir sıra elementləri əhalinin rifah səviyyəsinə yeni formada təsir göstərməyə başlayır ki, bu da ayrı-ayrı ölkələrin hökumətlərindən özlərinin sosial müdafiə siyasətinə yenidən baxaraq dəqiqləşdirmələr aparmağı tələb edir. Həmin elementlərə ictimai həyatın demokratikləşməsini, qloballaşmanı, demoqrafik problemləri, inkişafın sistem paradiqmasının dəyişməsini və digərlərini aid etmək olar. Bunların hər birinin sosial müdafiə sisteminə təsirinin ayrılıqda təhlil edilməsi və nəticələrə uyğun olaraq konkret ölkənin sosial müdafiə sisteminin dəyişdirilməsi üzrə səmərəli təkliflərin hazırlanması son dərəcə vacib problemlərdən birinə çevrilib.

Ötən əsrin 80-ci illərinin sonu, 90-cı illərində dünya sosialist sisteminin çökməsi və bu sistemə aid ölkələrdə bazar iqtisadiyyatına keçid ilk əvvələr işsizliyin və yoxsulluğun səviyyəsinin artmasına, əmək haqqının sürətlə aşağı düşməsinə səbəb oldu. Dünya Bankının mütəxəssislərinin hesablamalarına görə, Şərqi Avropa və MDB ölkələrində 1988-1994-cü illərdə yoxsulluq səviyyəsindən aşağıda yaşayan əhalinin xüsusi çəkisi 4%-dən 32%-ə qədər qalxmışdı. Belə bir şəraitdə hansısa sosial müdafiə sisteminin qurulması barədə düşünmək belə çətin idi və əsas diqqət əhalinin daha çox ehtiyacı olan kateqoriyalarının müxtəlif müavinətlər, güzəştlər, kompensasiyalar, təqaüdlər verilməsi yolu ilə ilkin ehtiyaclarının təmin edilməsinə yönəldilirdi. Başqa sözlə, transformasiya dövründə hər hansı bir paradiqmadan deyil, mövcud vəziyyətdən çıxış imkanlarından söhbət gedirdi. Bu baxımdan Azərbaycan Respublikasında Ümummilli Lider Heydər Əliyevin həmin illərdə həyata keçirdiyi sosial müdafiə siyasəti xüsusi bir tədqiqatın mövzusudur.

Hələ dövlət müstəqilliyinin bərpasının ilk illərində Ulu Öndərin yeni sistemə keçidin iqtisadi inkişaf üçün vacibliyi prinsipini irəli sürməklə yanaşı, eyni zamanda bu keçid prosesində əhalinin sosial maraqlarının təminatını, xüsusən aztəminatlı insanların sosial müdafiəsini, iqtisadi potensialın, ilk növbədə, xalqın rifahına yönəldilməsini dövlət qarşısında strateji vəzifələrdən biri kimi müəyyən etdi. Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi strategiya bazar iqtisadiyyatına keçid şəraitində aparılan islahatların əhalinin rifahına mənfi təsirinin azaldılmasını və köklü iqtisadi islahatlar şəraitində etibarlı sosial müdafiə sisteminin qurulmasını, milli iqtisadiyyatın sosial yönümlülük prinsipi əsasında inkişafını şərtləndirdi.

Ulu Öndərin aztəminatlı vətəndaşlara diqqət və qayğısının nəticəsi olaraq, əlil və şəhid ailələrinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, əlillərin tibbi-sosial reabilitasiyası sisteminin müasir tələblər səviyyəsində qurulması, əlillərin minik avtomobilləri, veloarabalar və digər reabilitasiya vasitələri ilə təminatı, pensiya və müavinətlərin artırılması, əhalinin məşğulluğunun gücləndirilməsi və s. istiqamətlərdə uğurlu tədbirlərin həyata keçirilməsinə başlanıldı.

Ümummilli Lider Heydər Əliyevin müdrik siyasi kursunun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi ölkə qarşısında yeni tərəqqi mərhələsi açdı. Dövlət başçısının düzgün düşünülmüş, məqsədyönlü siyasəti nəticəsində Azərbaycan inkişaf dinamikasına görə dünyanın lider ölkəsinə çevrildi. Eyni zamanda, əhalinin sosial müdafiəsinin gücləndirilməsi, aztəminatlı əhali qruplarına dövlət qayğısının artırılması istiqamətində mühüm uğurlar qazanıldı.

Azərbaycan vətəndaşına qayğı, onun maddi-mənəvi tələbatlarının ödənilməsi üçün zəruri şəraitin yaradılması Prezident İlham Əliyevin apardığı siyasətin mühüm prinsiplərindəndir.

Bu gün Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi dövlətin ilbəil güclənən sosial siyasətinin yüksək səviyyədə icrasına, ölkə əhalisinin rifah halının yaxşılaşdırılmasına mühüm töhfələr verən, bu səbəbdən də, cəmiyyətin inam və etimadını qazanmış bir hökumət strukturu kimi fəaliyyətini uğurla davam etdirir.

> Dövlətimizin siyasəti - iqtisadiyyatı inkişaf etdirməklə yanaşı, ilk növbədə sosial problemləri həll etməkdən ibarətdir
>
> ***Heydər Əliyev***



Prezident İlham Əliyev hər zaman öz çıxışlarında sosial siyasəti dövlət siyasətinin mühüm istiqamətlərindən biri kimi dəyərləndirərək bu sahənin qarşıdakı illərdə də Azərbaycan hökumətinin fəaliyyətinin prioriteti olaraq qalacağını vurğulayıb.

Demək olar ki, hər il vətəndaşların əməkhaqlarının, pensiyaçıların təqaüdlərinin, aztəminatlı ailələrə, şəhid ailələrinə, Qarabağ əlillərinə, eyni zamanda sağlamlığı məhdud olan vətəndaşlara verilən sosial müavinətlərinin artırılması da buna bariz sübutdur. Bu, Azərbaycanda insanların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində atılan zəruri addım kimi qiymətləndirilir.

Ölkə rəhbəri İlham Əliyev tərəfindən irəli sürülən bu təşəbbüs Onun sosial siyasətinin bir parçası kimi xarakterizə edilir və dövlətin vətəndaşa diqqət və qayğısı kimi səciyyələndirilir.

Sosial müdafiənin digər elementləri sosial yardım və sosial sığortadır.

Başqa sözlə, hər bir dövlətin müasir sosial müdafiə sistemi üç əsas - ayrı-ayrı əhali kateqoriyalarına verilən sosial müavinətlərdən və güzəştlərdən formalaşan dövlət sosial təminat növlərinin məcmusu; sosial yardımlara əsaslanan ənənəvi dövlət sosial müdafiə elementləri; sosial sığortadan (məcburi dövlət və könüllü korporativ sosial sığorta) ibarətdir.

Dövlət sosial xidmətləri sahəsində vətəndaş məmnunluğuna nail olunması Prezident İlham Əliyevin sosial sahə ilə bağlı islahatlar proqramının başlıca xəttidir. Dövlət başçısının 9 avqust 2018-ci il tarixli "Əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələrində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Fərmanı ilə yaradılan DOST Agentliyi və mərkəzləri bu məqsədə nail olunmasına imkan verəcək. Strukturu 11 addım üzrə müəyyənləşən əhalinin məmnunluğunu təmin edəcək "Dayanıqlı və Operativ Sosial Təminat" - DOST layihəsinin Konsepsiyası da hazırlanıb.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü olan DOST layihəsinin həyata keçirilməsi əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələri üzrə xidmətlərin bir pəncərədən, tam şəffaf, vətəndaşlara açıq iş şəraitində, nəzakətli şəkildə, sadə və əlçatan prosedurlarla təqdim edilməsinə imkan verməklə, ölkəmizin bu sahə üzrə yeni brendini formalaşdıracaq. Layihənin icrası işləri yol xəritəsi üzrə mərhələli şəkildə, yerli və beynəlxalq ekspertlərin iştirakı, mütərəqqi dünya praktikasının öyrənilməsi şəraitində aparılır.

"DOST" layihəsinin təqdimatı zamanı bununla bağlı çıxış edən əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev qeyd edib ki, vətəndaşların ənənəvi və ya elektron formada dövlət sosial xidmətləri ilə bağlı nazirliyə müraciətləri əsasında onlarla bağlı toplanmış məlumatları (əmək müqaviləsi, fərdi uçot, pensiya kapitalı, sosial təminat növləri, torpaq-pay mülkiyyəti, əlillik, reabilitasiya və s. üzrə) əhatə edən "e-sosial" internet portalı da yaradılıb. Bu işlərlə bərabər, nazirliyin müasir iş prinsiplərini və innovativ yeniliklərə açıq olmasını, cəmiyyətlə münasibətlərdə vətəndaşlara yanaşma və hədəflərini özündə əks etdirən yeni loqotipi hazırlanıb, həmçinin rəsmi internet saytı yenidən qurulub.

Nazir 2019-2025-ci illərdə Bakıda və respublikanın regionlarında 31 DOST mərkəzinin yaradılacağını da bildirilib: "DOST-un əsas missiyası ölkə əhalisinin "DOST" mərkəzləri şəbəkəsi və müasir texnologiyaların tətbiqi ilə əmək, məşğulluq və sosial müdafiə xidmətlərinə rahat çıxışına imkan yaratmaqdır".

Həmçinin, bunu da qeyd edək ki, DOST Agentliyinin fəaliyyətinin təşkili, "DOST" mərkəzlərinin yaradılması və əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələrində vətəndaşlara göstərilən xidmətlərin təkmilləşdirilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin Ehtiyat Fondundan Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə 2 milyon manat vəsait ayrılıb.

Ölkəmizdə əhalinin sosial müdafiəsinin yaxşılaşdırılması istiqamətində bir sıra mühüm addımlar atılır ki, bura əməyin ödənilməsinin minimum məbləğinin mütəmadi olaraq və əhəmiyyətli şəkildə artırılması, həmçinin pensiya, təqaüd və müavinətlərin məbləğinin əməyin ödənilməsinin minimum məbləğinə uyğunlaşdırılması və digərləri daxildir. Belə ki, son illər ümumən sosial müdafiə sisteminin bütün sahələrində növbəti ciddi addımlar atılıb, dövlət büdcəsindən pensiya və müavinətlər, digər sosial ödənişlər üzrə yönəldilən vəsaitlərin davamlı olaraq artırılması təmin edilib.

Buna sübut olaraq nazir Sahil Babayev açıqlayıb ki, 2019-cu ildə 45 500 insanın pensiyası 35 faiz artacaq: "Gələn il, həmçinin 38 min şəxsin aylıq gəliri 48 faiz artacaq. Pensiya təyinatının avtomatlaşdırılması hər il 67 min pensiya alan şəxsin həyatını yüngülləşdirəcək. Artıq pensiyaların təyin olunması avtomatik qaydada aparılacaq, vətəndaşlarımızın Dövlət Sosial Müdafiə Fondunun yerli şöbələrinə getmələrinə ehtiyac qalmayacaq".

Ölkədə sosial təminat istiqamətində görülən işlərlə bağlı SİA-ya açıqlama verən Milli Məclisin Əmək və Sosial Siyasət Komitəsinin sədri Hadi Rəcəbli isə qeyd edib ki, dünyada gedən proseslərə rəğmən ölkəmizdə sosial inkişaf davam etməkdədir: "Müəyyən zamanlarda ölkəmizdə digər sahələrə ayrılan vəsait azalsa da, sosial sahəyə ayrılan vəsait heç zaman azalmayıb, əksinə bu istiqamətə ayrılan maliyyə intensiv olaraq artmaqdadır. 2019-cu ilin dövlət büdcəsi də buna bariz nümunədir. Belə ki, gələn il üçün büdcədən sosial sahələrə 8 milyarddan çox vəsait ayrılıb ki, bu da büdcənin 33,4 faizini təşkil edir. Büdcənin sosialyönümlülüyü sayəsində hər bir ailə dövlət qayğısı ilə əhatə olunacaq. Büdcədə nəzərdə tutulan sosial xərclər sosial rifahın yaxşılaşdırılmasının dövlətin diqqət mərkəzində olduğunu bir daha sübut edir. Peşəkarlıqla hazırlanmış bu maliyyə sənədi növbəti ildə iqtisadiyyatın inkişafına və əhalinin sosial müdafiəsinin təmin edilməsinə, eyni zamanda, ölkənin müdafiə qüdrətini artırmağa, beynəlxalq aləmdə Azərbaycanın müsbət imicini daha da möhkəmləndirməyə imkan verəcək".

Son olaraq, xüsusi ilə qeyd edək ki, Prezident İlham Əliyevin son 15 ildə sosial müdafiə sistemi sahəsində ortaya qoyduğu əsas məsələlərin proqramlarla idarəetmə, regional inkişaf, qabaqlayıcı tədbirlər, ünvanlılıq və şəffaflıq ideyalarının olduğu sadalanan əsas amillər 2019-cu ilin dövlət büdcəsində öz əksini tapıb.

***Minarə Hacıyeva***

***"Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçün"***

# Müxalifət daxilində çalxalanma yaranıb

*Ziddiyyətlər radikallıq məhv olana qədər davam edəcək*

***Son günlər Müsavat-AXCP qarşıdurmasından sonra növbəti ziddiyyətlər AXCP-"REAL" arasında müşahidə edilməyə başlayıb. Belə ki, "REAL" partiyasının sədri İlqar Məmmədov hələ həbsdə olarkən, daha doğru desək, 2018-ci ilin prezident seçkisindən öncə, sosial şəbəkələrdə ona qarşı kampaniya düzənləyən AXCP sədri Əli Kərimli bu dəfə özü qarşı tərəfin hücumlarına məruz qalıb. Daha doğrusu, "əvəz-əvəz" prinsipi ilə qarşıdurmalara gedən tərəflər bir-birlərində hər an səhv tutmağa və bu səhv üzərindən zərbələr endirməyə çalışırlar. Bu baxımdan, indi də, görünür, növbə "REAL"-ın olub.***

## AXCP tərəfindən "REAL"-a ittiham



Növbəti qarşıdurmaya səbəb Ə.Kərimlinin icazəsiz aksiya səbəbindən saxlanılıb, iki gündən sonra isə azadlığa buraxılması olub. "REAL" tərəfindən Ə.Kərimliyə dəstək olmaması cəbhəçiləri "incik" salıb. Hətta sosial şəbəkələrdə "REAL" rəhbəri İ.Məmmədov həbsdə olarkən Ə.Kərimlinin sona qədər onu müdafiə etdiyini belə müzakirə ediblər. Ancaq "REAL"-ın cavabı da gecikməyib və cəbhəçilərin minnətli ifadələrinə qarşı sərt mövqe göstərilib.

AXCP-ni ittihamlarını cavablandıran "REAL"-çılar Ə.Kərimlinin şou yaratmaq məqsədi güddüyünü bildirərək vurğulayıblar ki, ikiüzlü və satqından hər şey gözləmək olar. Sözügedən məsələ ilə bağlı "REAL"-ın icraçı katibi Natiq Cəfərli AXCP-nin minnət və ittihamlarına cavab olaraq bildirib ki, İ.Məmmədovun həbsi zamanı Ə.Kərimli onun məhkəməsinə, məhz bir il sonra qatılıb: "Belə olan halda, həyasızcasına "REAL"-çıları ittiham etmək və bəyanatın verilməməsində hər hansı bir qəbahət yoxdur. Müxalifətin radikalizmlə bağlı hər hansı bir uğur əldə edə bilməyəcəyi faktdır və böhtançı Ə.Kərimlinin gündəmdə qalması üçün bu, növbəti şou oyunudur. Bir də siyasəti qorxulu bir sənət, iş, həbslər, təqiblər kimi təqdim etməyi artıq 25 ildir görürük. Bu cür hallar xalqın siyasətdən daha da kənarda qalmalarına səbəb olur. Əli Kərimli kimilər artıq öz satqınçılıq "titulu"nu qazanıb, bundan sonra onun çirkin oyunlarının mənası yoxdur".

## Qaşınmayan yerdən qan çıxaranlar...

Elə bu qarşıdurmanın ardınca müxalif düşərgədə yeni bir savaş cəbhəsi açılıb. Bu dəfə Müsavat və "Ümid" partiyaları toqquşublar. Bu savaşa səbəb də 2003-cü ildəki 15-16 oktyabr hadisələrinin 15 illiyi ilə bağlı Arif Hacılı və İqbal Ağazadənin "Meydan" TV-də canlı yayıma çıxmaları olub. Onlar efirdən bir-birini ən sərt şəkildə ittiham edib, hətta bir-birilərinin ünvanına təhqirlər də səsləndiriblər.

AMİP katibi Əli Orucov hesab edir ki, müxalifət daxilində müzakirələrin və debatların olması normaldır: "Təəssüflər olsun ki, cəmiyyətdəki radikallaşma müxalifətdaxili münasibətlərə də sirayət edib. Bu gün müxalifət düşərgəsində "liderlər" biri digərini təhqir etməkdən, aşağılamaqdan həzz almaqla yanaşı, özlərinə təsəlli sayırlar. Kim onun kimi düşünmürsə, onun istədiyi kimi deyilsə, dərhal satqın damğası vurulur".

Növbəti daha bir savaş İngiltərədə yaşayan hüquqşünas Qurban Məmmədovla "Milli Şura" arasında gedir. "Milli Şura" sədri Cəmil Həsənli Q.Məmmədovla Aslan İsmayılovun Qərbi tənqid etməsinə "protiv" çıxdıqlarını bildirib: "Buna dözə bilməzdik. Çünki Qərb bizə dayaq olub".

Bax, həqiqəti, öz dilinizlə açıq-aydın dediniz, satqın və satılan cinayətkarlar olduğunuzu da söylədiniz. Çünki ömürünüz boyu siz - Ə.Kərimli, C.Həsənli, A.Hacılı, İ.Qəmbər, R.İbrahimbəyov, Gültəkin Hacıbəyli, Leyla Yunus və ... bu kimi satqınlar ancaq Qərbin qulbeçələri olmalısınız. Qısası, şərböhtan, təhqir maşınına çevrilən sizlər elə qalmaqalda olsanız yaxşıdır...

**Rəfiqə HÜSEYNOVA**



RƏFİQƏ

## Vətən daşına dönük çıxanlar

***Düşünüb cavab axtarmağa ehtiyac da yoxdur. Çünki ermeniyə xüsusi xidmət edən hər kəs, şübhəsiz ki, Azərbaycanın düşmənidir. Bəs o zaman ermənilərlə dostluq edən "Milli Şura"çılar kimdir? Bax, bu yerdə də nə araşdırmaq lazımdır, nə də fikirləşmək. Cavab bəllidir: Vətən daşına dönük çıxanlar bu ölü qurumda toplaşıb.***

Ancaq "satqınlar kadrosu" olan "Milli Şura" hələ də anlamır ki, Vətən bir millətin üzərində yaşadığı coğrafiyadır. Torpağı Vətən edən millətin onda yaşadığı tarix, onunla qurduğu mədəniyyət əlaqələridir. Vətən millətin doğulduğu, doyduğu, sığındığı və maddi-mənəvi varlığını davam etdirdiyi yerdir. Vətən millətin evi, millət də vətəndə yaşayan ailədir. Vətən bizi qoruyan anadır. Çünki biz onun sayəsində inkişaf edir və yetkinləşirik. Vətən gözümüzün dünyada ilk gördüyü torpaqdır.

Bax, bu reallıqları görməkdə kor olan "Milli Şura"nın satqın kadrosu olan AXCP sədri Ə.Kərimli üçün satıb-satılmaq isə adi hal alıb. Çünki satqınlar kadrosu olan "Milli Şura"da toplaşan Vətən daşına xəyanət edən Əli Kərimli, Cəmil Həsənli, Gültəkin Hacıbəyli... kimi ünsürlərin sifətləri o qədər sürtülüb ki, üfunət iyi verir və elə zənn edirlər ki, hay-küy salmaq güclü olmaqdır. Ay qardaş, nə vaxdan hay-küylə nəyəsə nail olmaq olub? Anlamaq lazımdır ki, mənasız işlərlə ölkəmizi müstəqillik yolundan, güc və qüdrətli olmaqdan döndərmək mümkün deyil. Ona görə ki, Azərbaycan adlı gəminin güclü və bacarıqlı kapitanı var. Bu yerdə rəhmətlik Əbülfəz Elçibəyin qardaşı Almurad Əliyevin Əli Kərimliyə aid olan bir fikrini xatırlatmaq yerinə düşərdi. Elçibəyin ölümü ilə bağlı aparılan istintaq ərəfəsində o demişdi: "Əbülfəz Elçibəyə xəyanət edənlərin hamısı cəzalandırılıb. Yalnız bir nəfər cəzasız qalıb... Oqun da xəbəri gələcək".

Sonra da əlavə edərək deyib: "Kimdir o bir nəfər? Əlbəttə ki, satqın, xəyanətkar və pis adam Əli Kərimli! Sirr deyil ki, günahkarlar əvvəl-axır öz cəzalarını alırlar. Onun da xəbəri gələcək". Bax, gec-tez hər bir cinayətkar qanun qarşısında cəzasını almalıdır. Çünki antimilli, anti-Azərbaycan təbliğatları, erməni lobbisinin sifarişlərini yerinə yetirməklə respublikamızda təxribat törətmək, qarşıdurma yaratmaq cəhdləri, dələduzluqları və Vətənə xəyanət əməlləri uzun müddət davam edə bilməz!

# "Bakcell" abunəçiləri yüzlərlə "Ulduzum" tərəfdaşının eksklüziv endirim və imtiyazlarından yararlanır

***Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi Bakcell şirkəti ölkənin ən genişmiqyaslı loyallıq proqramını həyata keçirməklə öz abunəçilərini 250-dən artıq yerli və beynəlxalq tərəfdaşın 400-dən artıq satış və xidmət nöqtəsində təklif olunan eksklüziv endirimlər və imtiyazlarla təmin edir.***

Artıq 5 ildir ki, Azərbaycanda ən uğurlu loyallıq proqramlarından biri hesab olunan "Ulduzum"a 3 milyona qədər Bakcell abunəçisi qoşulub. Proqramın istifadəçiləri populyar restoran və otellər, nüfuzlu geyim, parfümeriya və elektronika mağazaları ilə yanaşı, sağlamlıq, idman və əyləncə mərkəzləri, ən populyar kinoteatrlar, banklar, kitab dükanları, kabel televiziya provayderləri və digər sahələrdə fəaliyyət göstərən tərəfdaşımızın təklif etdiyi özəl kampaniyalar və endirimlərdən yararlanmaq imkanına malikdirlər. "Ulduzum" proqramının ən aktiv tərəfdaşları siyahısında yer alan "Hesab.az" portalı, "Park Cinema" kinoteatrlar şəbəkəsi, "166 Yük Taksisi" xidməti, "İdeal" və "Poppy Gallery" mağazalar şəbəkəsi cari mövsümdə istifadəçilərin sayı üzrə ən yüksək nəticə göstərib.

Qeyd edək ki, 2018-ci ilin may ayından etibarən "Ulduzum" tərəfdaşı olan "166 Yük Taksisi" xidmətinin 12000 nəfərdən çox müştərisi bu günə kimi proqram vasitəsilə müxtəlif endirimlərdən yararlanıb. Həmin abunəçilərə heç bir əlavə şərt olmadan yük taksisi və evakuasiya xidmətlərinə 10%, təmizlik xidmətlərinə isə 15% endirim təqdim olunur.




"Ulduzum" Loyallıq Proqramı geniş partnyor şəbəkəsi ilə öz istifadəçilərinə böyük imkanlar yaradır. Proqram tərəfdaşlığı etdiyi hər bir şirkət üçün müştəri loyallığının artırılmasında mühüm rol oynayır. Müştərilərimiz endirimdən istifadə etməyə çox maraq göstərirlər. "166 Yük Taksisi" olaraq Bakcell şirkətinin "Ulduzum" proqramı ilə əməkdaşlığımızı yüksək qiymətləndiririk", deyə "166 Yük Taksisi" şirkətinin Marketinq meneceri Rüfət Əliyev bildirib.

Proqramın digər ən aktiv partnyorlarından olan "Park Cinema" kinoteatrlar şəbəkəsi 16000-dək "Ulduzum" istifadəçisinə 3 kinoteatrda (Park Bulvar, Metropark, Park Zağulba ticarət mərkəzlərində yerləşən kinoteatrlar) həftənin hər cümə axşamı bütün seanslara hər 2-ci bileti pulsuz əldə etmək imkanı təqdim edilib.

"Müştərilərimiz arasında bu kampaniyaya böyük maraq var və aldığımız müştəri rəyləri arasında bu imkanın digər günlərə şamil edilməsi təklifləri də çoxdur. İstənilən şirkətin bazarda rəqabət aparmaq üçün müştəriyönümlü olması çox vacibdir. Çünki bu, müştəriyə şirkət tərəfindən verilən dəyərin göstəricisidir. Bakcell Azərbaycanın ilk mobil operatorudur, "Park Cinema" isə 1-ci kinoteatr şəbəkəsidir. Bazarın liderləri ilə çalışmaq hər zaman yeniliklərə imza atmaq deməkdir. Biz hər zaman Ulduzum və Bakcell şirkəti ilə yeni kampaniyalar keçirməyə və bu layihəyə dəstək olmağa hazırıq", deyə Park Cinema kinoteatrlar şəbəkəsinin Satış və Marketinq Direktoru Musa Axundov bildirib.

"Ulduzum" proqramının üstünlükləri müştərilərə təkcə böyük endirimlər və imtiyazlar verməkdən ibarət deyil. Proqramın əsas məqsədlərindən biri də abunəçilərin gündəlik həyatına rahatlıq gətirməkdir. Proqram ölkənin ilk və ən innovativ mobil operatoru ilə onun böyük və dəyərli müştəri ailəsi arasında loyallıq, etibar və şəffaflığa əsaslanan möhkəm münasibətlərin qurulmasına xidmət edir. "Ulduzum"un daha bir özəlliyi ondan ibarətdir ki, proqramdan təkcə Bakcell abunəçiləri yox, həm də endirim təqdim edən tərəfdaşlar faydalanır.

Hər bir Bakcell müştərisi "Ulduzum"a qoşula bilər. Bunun üçün heç bir abunə haqqı tələb edilmir. Loyallıq proqramında iştirak etmək üçün "1" rəqəmini 5555 nömrəsinə SMS vasitəsilə göndərmək kifayətdir. Ulduzum barədə daha ətraflı məlumat www.ulduzum.az səhifəsində əldə oluna bilər.

# Cəmiyyətin həyatında qadınların bərabər hüquqluluğu




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə “İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması” istiqaməti çərçivəsində hazırlanıb*

***Qadın Hüquqları Haqqında Beynəlxalq Konvensiyasının dördüncü hissəsinin 15-ci maddəsində göstərilir:***

1. İştirakçı dövlətlər qadınların qanun qarşısında kişilərlə bərabərliyini etiraf edirlər.

2. İştirakçı dövlətlər qadınlara kişilərlə eyni mülki hüquq səlahiyyəti və onu gerçəkləşdirmək üçün eyni imkanlar verirlər. Onlar, o cümlədən, qadınlara müqavilə bağlamaqla və əmlakı idarə etməkdə, həmçinin onlara məhkəmə və tribunal təhqiqatının bütün mərhələlərində bərabər münasibət təmin edirlər.

3. İştirakçı dövlətlər razılaşırlar ki,hüquqi nəticələri qadınların hüquq səlahiyyətinin məhdudlaşdırılmasına səbəb olan bütün müqavilələr və hər cür digər xüsusi sənədlər etibarlı sayılır.

4. İştirakçı dövlətlər şəxslərin yerdəyişməsinə yaşamaq və daimi yaşayış yerini azad surətdə seçməsinə dair qanunvericiliyə münasibətdə kişilərə və qadınlara eyni hüquqları verirlər.

Azərbaycan Respublikasında reallaşdırılan bir sıra dövlət proqramlarında qadınların problemlərinin həllini nəzərdə tutan gender komponenti daxil edilmişdir. Biz bu gün fəxrlə deyə bilərik ki, gender-büdcələşmə sisteminin yaradılmasında böyük uğur qazanmışıq. Gender bərabərliyinin qorunması və qadınların imkanlarının genişləndirilməsi məqsədilə dövlət hər il büdcəsindən vəsait ayırır. Digər misal kimi, yoxsulluğun azaldılması və davamlı inkişaf proqramınının tərkibində gender komponentinin tam həcmlə nəzərdə tutulduğunu göstərə bilərik. Proqramda qadınların məşğulluğu, həmçinin, qadın sahibkarlığının inkişafı, kiçik müəssisələrin inkişafında gender bərabərliyinin nəzərdə tutulması faktorlarını diqqət mərkəzində saxlayır.

2006-2015-ci illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyasında qadınların iqtisadi sektorda işinin stimullaşdırılması, müəssisələrin inkişafı prosesində gender bərabərliyinin təmin edilməsi və s. də daxil olmaqla, qadınların işlə təmin edilmələri üzrə kompleks tədbirlər həyata keçirilməkdədir. Məşğulluq Strategiyasında ayrıca bölmədə ailə işi uzlaşdırmaq məqsədilə qadınlar üçün azad iş növlərindən bundan sonra geniş istifadə nəzərdə tutulmuşdur.

Xüsusi qeyd etmək lazımdır ki, qadınlarımızın potensialının tam şəkildə reallaşdırılması prosesini daim fəal surətdə dəstəkləyən ölkəmizin Birinci Xanımı, Heydər Əliyev Fondunun prezidenti, millət vəkili, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva qadın məşğulluğunun inkişafı məsələlərinə də böyük diqqət yetirir bu sahədə ictimai təşəbbüslərin daha da genişləndirilməsi istiqamətində bütün cəmiyyəti səfərbər edir.

Statiskaya nəzər salsaq, görərik ki, ölkəmizdə iqtisadi fəal əhalinin 4331800 nəfər təşkil edirsə, onun 2130 nəfəri qadınlardır. Hazırda ölkə iqtisadiyyatının, demək olar ki, bütün sahələrində qadınlar çalışırlar və onların məşğul əhalinin ümumi sayında 2003-cü ildəki 47 faizi 49,5 faizədək artmışdır. Əmək qabiliyyətli qadınların 69,2 faizi özəl sektorlarda, 30,8 faizi isə dövlət sektorlarında çalışır. Özəl sektorda çalışan qadınların yalnız 3 faizinin öz şəxsi biznesi var. Sosial sahələr üzrə idarəetmə strukturlarında çalışan qadınlar 33 faiz təşkil edir. Bizneslə məşğul olan qadınlar, əsasən, kiçik müəssisələrdə fəaliyyət göstərirlər və qadınların çox az hissəsi orta böyük müəssisələrdə çalışırlar.

Hicran Hüseynovanın qeyd etdiyi kimi, dünyada iqtisadi və sosial-siyasi vəziyyətin dəyişməsi əhalinin məşğulluğu sahəsində də dəyişikliklər yaradıb. Buraya əmək bazarının müxtəlif seqmentlərə bölünməsini, qeyri-formal sektorun iqtisadiyyata təsirinin artmasını və kiçik biznesin sürətli inkişafını aid etmək olar. Beləliklə, qadınların iqtisadiyyat sektorunda fəal iştirakı problemi ölkənin sosial-iqtisadi vəziyyətinin adekvat qiymələndirilməsi ilə sıx əlaqəlidir. Bizim əsas məqsədimiz, qadınların əmək hüquqlarının təmin olunmasına nəzarət etmək, onlara bütün sosial qarantiyalardan hərtərəfli faydalanmağa imkan yaratmaqdır.

Konkret Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə gəldikdə isə, respublikamızda qadınların ölkənin iqtisadi həyatında iştirakını, əmək-hüquqlarının qorunmasını, qadın sahibkarlığının inkişafı daim dəstəklənir. Müasir dövrdə bütün dünyada qadınların iqtisadi sahədə fəaliyyətinin genişlənməsi müşahidə olunur. Əlbəttə, biz də qadınları bu sahələrdə uğurlu və aparıcı iştirakçı kimi görmək istərdik.

Bu proseslərin fonunda səmərəli və təsirli tənzimlənmə mexanizmlərinin axtarılmasının əhəmiyyəti var, bu gün biz, məhz belə imkanların araşdırılmasını alqışlayırıq. Bu məqsədlə, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi UNNSR-ın Qaçqınlar üzrə Ali Komissarlığı və ayrıca Beynəlxalq Əmək Təşkilatı ilə birlikdə imkansız ailələrdən olan qadınların moşğulluğunun artırılması üçün müxtalif sahələrdə kurslarını təşkil edib. Bu kurslarda qadınlarla ixtisasartırma təlimləri keçirilərək yeni peşələrə yiyələnirlər. Ölkədə sahibkarlığın inkişafının sürətləndirilməsi, biznesə başlama prosedurlarının sadələşdirilməsi üçün Prezidentin Sərəncamı əsasında “bir pəncərə” sistemi yaradılmışdır. Bu, bütün sahibkarlar üçün çox əlverişli şərait yaradır və tez bir zamanda biznes fəaliyyətinə başlamağı təmin edir.

Həyata keçirilən iqtisadi siyasətin nəticəsi olaraq, Azərbaycan stabil inkişaf yolundadır. Ölkəmizdə yeni iqlisadi münasibətlərə keçidlə əlaqədar əhalinin sosial-iqtisadi inkişaf səviyyəsində baş vermiş köklü dəyişikliklər son illər qadınların bu prosesdəki rolunun aktivləşdirilməsinə gətirib çıxarmışdır. Qadınların iqtisadi fəaliyyətə cəlb edilməsi yolu ilə onların işgüzar və intellektual potensialından səmərəli istifadə edilməsi, əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsi və sahibkarlığın inkişafı kimi prioritet məqsədlərin reallaşması baxımından əhəmiyyətlidir.

Ümumiyyətlə, cəmiyyətin tərəqqisi, dövlətin iqtisadi bazasının möhkəmləndirilməsi üçün kiçik və orta biznesin inkişafı zəruridir. Əlbəttə, biz qadınları böyük biznesdə də görmək istərdik. Lakin təəssüf ki, dünyada belə nümunələr azdır. Bütövlükdə, Azərbaycanda qadınların iqtisadi sahədə hərtərəfli inkişafı dövlət tərəfindən fəal surətdə dəstəklənir.

Qadınlara münasibət, gender mədəniyyəti demokratiyanın inkişafı ilə bağlı olduğu kimi, demokratiyanın inkişafı da gender mədəniyyəti ilə bağlıdır. Cəmiyyət həyatının bütün sahələrində bu balansı qorumağa nail olmaq lazımdır. Azərbaycanda uğurla aparılan dövlət-qadın siyasətinin təməlində də, məhz bu prinsiplər dayanır.

Kovensiyanın 251-ci maddəsində göstərilir: “Bu maddə yaşı 18-dən az olan işçilərin müəyyən edilmiş normalardan artıq ağır əşyaların qaldırılması və bir yerdən başqa yerə daşınması işlərinə cəlb edilməsini qadağan edir.

16 yaşından 18 yaşınadək olan qadınlar tərəfindən ümumi çəkisi 10 kiloqramdan çox olan əşyaların əl ilə qaldırılaraq başqa yerə daşınması, habelə ümumi çəkisi 5 kiloqramdan çox olan əşyanın bir metr yarımdan artıq hündürlüyə qaldırılması qadağandır.

16 yaşınadək qızlar, aşağıdakı şərtlər mövcud olduqda, əşyaların qaldırılması və daşınması işlərinə cəlb oluna bilər:

- öz razılığı ilə;
- qaldırılmalı və daşınmalı əşyaların yuxarı həddi bu maddənin 2-ci hissəsində nəzərdə tutulan normaların, müvafiq olaraq, 1/3-i həddindən çox olmamalıdır;
- yük qaldırma və daşınma işləri bütün iş günü ərzində müntəzəm olmamalıdır.

Bu maddə işəgötürənlərin üzərinə vəzifə qoyur ki, təşkilatihüquqi formasından asılı olmayaraq, kənd təsərrüfatı təyinatlı müəssisələrdə qadınların əməyindən yalnız Əmək Məcəlləsinin müvafiq maddələri ilə müəyyən edilmiş normalar dairəsində istifadə edilsin”.

Azərbaycanda qadınların həm də siyasi və ictimai qərar qəbuletmə səviyyəsində, iqtisadi sferada iştirak nəzərəçarpacaq dərəcədə artmışdır. Təbii ki, bu görülən işlərin nəticəsində mümkün olmuşdur. Bu gün Azərbaycan hökuməti qadınların iqtisadi sferada öz potensiallarının artırması üçün müxtəlif həvəsləndirici və təşviqedici tədbirlər görür. Qadınların biznes sahələri yaratması üçün dövlət tərəfindən güzəştli kreditlərin verilməsi, müxtəlif vakansiyalara qadınların cəlb olunması kimi tədbirlər bunlardan, sadəcə, bir neçəsidir.

Bir məsələni də, xüsusilə qeyd etmək yerinə düşər. Bildiyimiz kimi, Azərbaycan tarixində xalqının, dövlətinin taleyində müstəsna rol oynamış, öz qərarları və atdıqları addımlarla xalqımızın gələcəyinə işıq tutmuş görkəmli qadınlarımız olmuşdur. Azərbaycan xanımları bütün dövrlərdə öz istedadı, zəkası, ağlı və iradəsi ilə milli-mənəvi dəyərlərimizin qorunub-saxlanılması və yaşadılmasında müstəsna xidmətlər göstərmişdir. Tariximizin və mədəniyyətimizin bir çox parlaq səhifələri də, məhz Azərbaycan qadınının adı ilə bağlıdır. Çox sevindirici haldır ki, bu gün də bütün fəaliyyətini xalqımızın, dövlətimizin daha da inkişafına həsr edən belə işgüzar, cəsarətli və vətənpərvər xanımları vardır. Azərbaycanın Birinci Xanımı, Heydər Əliyev Fondunun prezidenti UNESCO-nun və İSESKOnun Xoşməramlı Səfiri, Azərbaycan Respublikasının Birinci vitseprezidenti, Milli Məclisin üzvü Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti həm də hər bir azərbaycanlı qadın üçün fəxr, qürur mənbəyidir. Onun milli-mənəvi dəyərlərimizin qorunması, xalqımızın zəngin irsinin təbliği, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, gənc nəslin sağlam mühitdə böyüməsi və tərbiyə olunması, səhiyyənin, təhsilimizin, mədəniyyətimizin inkişafı sahəsində əvəzsiz xidmətləri yüksək ali ideallara və yalnız milli maraqlarımıza söykənir. Bu gün hər bir Azərbaycan qadını öz fəaliyyətində Mehriban xanım Əliyevanın cəsarətli addımlarını və yorulmaz fəaliyyətini örnək sayır.

Beləliklə, bu gün iqtisadi qüdrətli, geostrateji çəkisi ilə Cənubi Qafqaz regionunun ən güclü dövləti olan Azərbaycan Respublikası insan hüquq və azadlıqlarının mühüm tərkib hissəsi olan qadın hüquqlarının qorunması, düzgün gender siyasətinin həyata keçirilməsi baxımından da örnək təşkil edir. Ölkəmizdə, cinsindən asılı olmayaraq, hər bir vətəndaşımızın cəmiyyətin həyatında fəal iştirakına yaradılan əlverişli şərait, nəticə etibarilə, həm də dövlətimizin inkişafına müsbət təsir göstərməkdədir.

***VAHİD ÖMƏROV,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***

səs
Son səhifə 4 dekabr

## Dünyada kişilərin 8, qadınların isə 0,5 faizi daltonikdir



Daltonizm-rəng korluğu gözün görmə mərkəzindəki xüsusi piqmentlərin yoxluğu və yaxud əskikliyi nəticəsində yaranan xəstəlikdir. Problemə səbəb göz arxasında yerləşən rəng detektorundakı hüceyrələrdə olan konusların içərisindəki 3 piqmentin (qırmızı, yaşıl və mavi) hansısa birinin və ya hər üçünün az olması, yaxud da heç olmamasıdır. Bu patoloji hala ilk dəfə olaraq 1798-ci ildə ingilis Con Dalton adlı bir kişidə rast gəlinib. Sonradan onun adı ilə adlandırılan daltonizm bəzi insanların qırmızı və yaşıl rəngi seçə bilməməsidir.

Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasından AZƏRTAC-a bildiriblər ki, irsən keçən bu xəstəliyə ən çox oğlan uşaqlarında rast gəlinir. Lakin az hallarda da qız uşaqları da bu çatışmazlıqdan əziyyət çəkirlər. Əgər bu xəstəlik valideynlərdən birində varsa, bu, oğlan uşaqlarında rast gəlinməsi üçün yetərli səbəbdir. Hər iki valideynin daltonik olması qız uşaqlarında bu xəstəliyin əmələ gəlməsinə səbəb olur. Daltonik bir kişinin qızı heç vaxt daltonik olmur, lakin əlamətləri özündə daşıyır və gələcəkdə onun oğlu bu problemlə doğula bilər. Hazırda dünyada kişilərin 8, qadınların isə 0,5 faizi daltonikdir.

Daltonizm tam və qismən rəng korluğu olmaqla iki qrupa ayrılır. Uşaqlıq və ya yeniyetmə dövründən başlayan daltonizm yaş artdıqca ağırlaşır. Xəstəliyin əmələ gəlməsinin başlıca səbəbi genetikdir. Belə ki, problem X xromosomu üzərində daşınır. Lakin beyin travmaları, gözün üst təbəqəsinin zədələnməsi, uşaq ikən ultrabənövşəyi şüalara çox məruz qalınması da xəstəliyin yaranmasına səbəb ola bilər. Maraqlıdır ki, daltonizmə təkcə insanlarda deyil, heyvanlarda da rast gəlinir. Bu problemin dəqiq bir müalicəsi olmasa da, qismən rəng korluğu olduqda xromogen linza və xüsusi eynəklərlə xəstənin görə bilmədiyi rənglər parlaq bir hala gətirilə bilir.

## Kakao depressiyanın qarşısını alır




Kakao paxlasından yağ aldıqdan sonra qalan jmıx üyüdülür və ondan kakao tozu əldə edilir. Kakaoda teobromin maddəsi var ki, bu da ürək-damar və əsəb sisteminə oynadıcı təsir göstərir. Süd, qaymaq və başqa xammalların qatılması isə içkinin qidalılıq dəyərini artırır. Mütəxəssislərin fikrinə görə isə, soyuq fəsillərdə kakaonun istehlakı orqanizm üçün çox faydalıdır.

AZƏRTAC xəbər verir ki, İngiltərənin Redinq Universitetinin alimləri apardıqları araşdırmalar nəticəsində kakaonun bağırsaqlarda faydalı bakteriyaların çoxalmasını stimullaşdırdığı və iltihabı azaltdığı qənaətinə gəliblər. Nəticədə isə immun sistemi möhkəmlənir.

Lakin kakaonun orqanizmə olan faydası bununla bitmir. Belə ki, onun sinir sisteminə müsbət təsir etdiyi də bir daha sübut edilib. Kakaonun tərkibində olan maddələr, həmçinin neyronların bərpasını stimullaşdırır, onların arasında olan əlaqələri bərpa edir. Soyuq fəsillərdə günün qısalması və soyuq hava orqanizm üçün güclü stress amilidir. Kakao isə depressiyanın qarşısını alır, əzələlərin sıxılmasını azaldır, əhvali-ruhiyyəni yüksəldir, yuxu rejimini stabilləşdirir.

Mütəxəssislərin fikrincə, kakaonu müntəzəm istehlak edən insanlarda şəkərli diabet və ürək xəstəlikləri riski 2 dəfə azalır. Kakaonun tərkibində olan flavonoidlər ürək hüceyrələrini bərpa edir, damarların elastikliyini artırır, qan dövranını normallaşdırır. Onun tərkibindəki "epikatexin" maddəsi isə beyinin qan dövranını və yaddaşı yaxşılaşdırır. Bu içki insultun yaranma riskini azaldır, arterial təzyiqin stabil qalmasına kömək edir. Kakaonun istehlakı, eyni zamanda, qanda xolesterinin və şəkərin səviyyəsini tənzimləyir.

**ELAN**

Bakı şəhəri, Z.Əhmədbəyov küçəsi ev 39, mənzil 19 Novruzova Sona Kəblə Məhərrəm qızının adına verilmiş çıxarış itdiyi üçün etibarsız sayılır.

## Millimizin rəqibləri müəyyənləşdi




İrlandiyanın paytaxtı Dublindəki Konvensiya Mərkəzində 2020-ci il futbol üzrə Avropa çempionatının seçmə mərhələsinin püşkatma mərasimi keçirilib. SİA-nın məlumatına görə, yığma komandamızın qrupdakı rəqibləri Xorvatiya, Uels, Macarıstan və Slovakiya komandaları olacaq.

Qeyd edək ki, 2020-ci il iyunun 12-dən iyulun 12-dək keçiriləcək final mərhələsinə Azərbaycan, İngiltərə, Macarıstan, Almaniya, Danimarka, İrlandiya, İspaniya, İtaliya, Hollandiya, Rusiya, Rumıniya və Şotlandiya ev sahibliyi edəcək. Bakı Olimpiya Stadionunda qrup mərhələsinin üç, 1/4 final mərhələsinin isə bir oyunu keçiriləcək.

## "Beşiktaş" "Qalatasaray"ı məğlub edib



Futbol üzrə Türkiyə Superliqasında 14-cü turun oyunları davam edir. SİA-nın məlumatına görə, ikinci oyun günündə 2 qarşılaşma keçirilib. Turun mərkəzi görüşü İstanbulda olub. Şəhərin iki nəhəngi - "Beşiktaş" və "Qalatasaray" "Vodafon Arena"da münasibətlərinə aydınlıq gətiriblər. Derbinin taleyini 1 qol həll edib. Adem Lyayiçin 18-ci dəqiqədə penaltidən vurduğu qol "Beşiktaş"a minimal hesablı qələbə qazandırıb.

Bu nəticədən sonra xallarının sayını 24-ə yüksəldən "qara qartallar" eyni xala malik "Qalatasaray"ı qabaqlayaraq 3-cü pilləyə yüksəliblər. Turnir cədvəlinə isə 30 xalla "Başakşəhər" başçılıq edir. 2-ci pillədə 25 xalı olan "Kasımpaşa" yer alıb.

## UEFA klublararası yeni turnir yaratmağı planlaşdırır




UEFA İcraiyyə Komitəsi 2021/2024-cü illər üçün klublararası üçüncü turnirin yaradılmasını planlaşdırır. SİA-nın məlumatına görə, "UEL2" adlanan yeni turnir Çempionlar Liqası və Avropa Liqasındakı sxemlə keçiriləcək. Qrup mərhələsində 32 komanda mübarizə aparacaq. Onlar hər birində 4 komanda olmaqla, 8 qrupa bölünəcək. Daha sonra səkkizdəbir final, dörddəbir final, yarımfinal və final olacaq. Səkkizdəbir final öncəsi əlavə pley-off matçları keçiriləcək. Həmin oyunlarda "UEL2" qruplarında 2-ci yeri tutmuş klublarla Avropa Liqası qruplarının 3-cü yer sahibləri qarşılaşacaqlar.

Yeni turnir Avropa Liqasındakı kimi, 15 oyun günü ərzində 141 qarşılaşmanı nəzərdə tutur. "UEL2"nin qalibi növbəti mövsümün Avropa Liqasına vəsiqə qazanacaq. Oyunlar həftənin 4-cü günləri keçiriləcək. Beləliklə, Çempionlar Liqasının görüşləri 2-3-cü, Avropa Liqası və yeni turnirin matçları 4-cü günlərə təsadüf edəcək. Bütün klub turnirlərinin final oyunları eyni həftədə - çərşənbə (yeni turnir), cümə axşamı (Avropa Liqası) və şənbə (Çempionlar Liqası) günləri keçiriləcək.

Yeni turnir qrup mərhələsində azı 34 (hazırda minimum 26-dır) milli assosiasiyanın avrokuboklarda təmsil olunmasını təmin edəcək və bütün ölkələrin klublarına açıq olacaq. Bütün assosiasiyalar indiki say kvotalarını saxlayacaqlar. 2021/2024 təşkilində Avropa Liqası formatı yeni turnirin formatına uyğunlaşdırılacaq. Səkkizdəbir final öncəsi əlavə pley-off raundu tətbiq olunacaq. Burada Avropa Liqası qruplarının ikinci yer sahibləri ilə Çempionlar Liqası qruplarının üçüncüləri qarşılaşacaqlar. Çempionlar Liqası formatı və seçim sxemi dəyişikliyə məruz qalmayacaq.

## Yığmamız Moskvada bürünc medal qazanıb




Dekabrın 1-2-də Rusiyanın paytaxtı Moskvada sərbəst və yunan-Roma güləşi üzrə ikiqat olimpiya çempionu İvan Yarıginin xatirəsinə "Alrosa" Kuboku keçirilib. SİA-nın məlumatına görə, "Dinamo" İdman Sarayında təşkil olunan turnirdə olimpiya çəkilərində çıxış edən güləşçilərdən ibarət komandalar yarışıb.

Sərbəst güləşçilərin turnirində məşqçi Nazim Əlicanovun rəhbərliyi altında İslam Bazarqanov (57 kq), Ənvərbəy Dalqatov (65 kq), Hacımurad Ömərov (74 kq), Kənan Əliyev (86 kq), Roman Bəkirov (97 kq) və Rahid Həmidlidən (125 kq) ibarət komanda Gürcüstana qalib gəlib, Rusiya, İran və Özbəkistana uduzub. Bu nəticəylə yığmamız 4-cü yeri tutub. Yunan-Roma güləşi üzrə millimizin heyətində Ramiz Məmmədov (60 kq), Kərim Cəfərov (67 kq), İslambek Dadov (77 kq), Rafiq Hüseynov (87 kq), Zamir Məhəmmədov (97 kq) və Türmən Eyyubov (130 kq) yer alıb. Məşqçilər Turac Hüseynli və Zöhrab Abbasovun tapşırıqlarını icra edən komandamız Rusiya və Özbəkistana məğlub olub, Gürcüstana isə qalib gəlib. Bu nəticəylə millimiz "Alrosa" Kubokunu bürünc medalla başa vurub. Qeyd edək ki, görüşlərin idarə edilməsində ölkəmizi I dərəcəli beynəlxalq hakim Natiq Hacıyev təmsil edib.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**